KHAZAR REVIEW
№ 386 İyul 2019

# XƏZƏR XƏBƏR




AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# "Xəzər"də imtahan həyəcanları

# Exams thrill at Khazar University












# İÇİNDƏKİLƏR


Universitet xəbərləri . . . . . . . . . . 4
Nanotexnologiya üzrə beynəlxalq seminar . . . . . . . . . . 8
Xəzər Universitetinin komandası III Robot Olimpiadasının qalibləri arasında . . . . . . . . . . 12
Təsviri və tətbiqi incəsənət müsabiqəsinin sərgisi . . . . . . . . . . 14
Havanın keyfiyyəti ölçüldü . . . . . . . . . . 16
"Elm və Sənət Məclisi"nin 71-ci məşğələsi . . . . . . . . . . 20
Görkəmli riyaziyyatçı alim Boris Mityaqinə Xəzər Universitetinin Fəxri doktoru diplomu təqdim olundu . . . . . . . . . . 24
Xəzər Universitetində 2-ci "Riyazi fizikanın operatorları, funksiyaları və sistemləri" adlı beynəlxalq konfrans keçirildi . . . . . . . . . . 29
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri . . . . . . . . . . 34
"Tələbələr arasında intellekt olimpiadası"nın qalibi Xəzər Universitetinin tələbəsidir . . . . . . . . . . 38
Potensial məktəb direktorları kursunun növbəti buraxılışı . . . . . . . . . . 40
Xəzər Universitetinin departament müdiri beynəlxalq quruma üzv seçildi . . 45
NDU xəbərləri . . . . . . . . . . 46
Birinci kurs tələbələrinin yaradıcılıq imtahanı . . . . . . . . . . 48
*Vasif Hüseynov.* Can China Broker the Resolution of the Armenia-Azerbaijan Conflict? . . . . . . . . . . 56
Sumqayıt "Dünya" məktəbinin uğur qazanmış şagirdləri "Xəzər"də . . . . . . 62
Avrasiya Bilik Mərkəzi növbəti təlim kursu keçirdi . . . . . . . . . . 66
Xəzər Hava Keyfiyyəti Laboratoriyasının təqdimatı . . . . . . . . . . 72



1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi: Xəzər Universiteti

Baş redaktor: Hamlet İsaxanlı

Baş redaktor müavini: Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru: Eynar Mehdiyev

Kompüter tərtibatçısı: Gönül Əkbərova

Foto: Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder: Khazar University

Editor-in-chief: Hamlet Isaxanli

Associate editor: Alirza Balayev

Editorial members:
Isa Habibbeyli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts: Eynar Mehdiyev

Computer graphics: Gonul Akbarova

Photo: Multimedia Centre




# İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ ÖLKƏNİN ALİ MƏKTƏB TƏLƏBƏLƏRİ ARASINDA KEÇİRİLMİŞ "UĞURLU SƏHM SEÇİMİ" MÜSABİQƏSİNDƏ ÜÇÜNCÜ YERİ TUTMUŞLAR

# STUDENTS OF THE SCHOOL OF ECONOMICS AND MANAGEMENT TOOK THIRD PLACE IN "STOCK PITCH" COMPETITION HELD AMONG COUNTRY'S HIGHT SCHOOL STUDENTS

Xəzər Universitetinin İqtisadiyyat və Menecment fakültəsini təmsil edən tələbələr - Xəyalə Şıxəliyeva (4-cü kurs, Mühasibat uçotu və audit), Mürsəl Qulami (3-cü kurs, Mühasibat uçotu və audit), Murad Nuriyev (3-cü kurs, Maliyyə) və Məhəmməd Bağırlıdan (3-cü kurs, Mühasibat uçotu və audit) ibarət "The İntangibles" komandası Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən mayın 30-da təşkil edilən "Uğurlu səhm seçimi" ("Stock Pitch") analitik müsabiqəsinin finalında uğurlu nəticə göstərərək 3-cü yeri tutmuş, mükafat ilə təltif olunmuş və tələbələr ARDNF-də təcrübə keçmək imkanı əldə etmişlər.

Bu münasibətlə Xəzər Universiteti adından tələbələri təbrik edir və gələcəkdə onlara yeni müvəffəqiyyətlər arzulayırıq.

Ölkə mediası müsabiqənin final mərhələsini geniş işıqlandırmışdır:

*http://asanradio.az/news/23931*
*https://az.trend.az/business/energy/3070250.html*
*http://palitranews.az/news.php?id=106503* və s.

Students representing Khazar University's School of Economics and Management and having formed "The Intangibles" Team consisting of - Khayala Shikhaliyeva (4th year, Accounting and Audit), Mursal Gulami (3rd year, Accounting and Audit), Murad Nuriyev (3rd year, Finance) and Mohammed Baghirlidan (3rd year, Accounting and Audit), showed successful results in the final of the "Stock Pitch" analytical competition, held by the State Oil Fund of the Republic of Azerbaijan (SOFAR) on May 30, and by winning 3rd place were acknowledged with awards and gained the opportunity to undertake internship at SOFAR.

On this occasion, we congratulate the students on behalf of Khazar University and wish them success in their future endeavors.

The country's media widely spread the news on the final stage of the competition:

*http://asanradio.az/news/23931*
*https://az.trend.az/business/energy/3070250.html*
*http://palitranews.az/news.php?id=106503* and etc.

# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

# LETTER OF GRATITUDE TO "KHAZAR UNIVERSITY"

*Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin tələbələrindən ibarət "The İntangibles" komandasının "Uğurlu səhm seçimi" müsabiqəsində üçüncü yer tutması münasibətilə Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF) daxil olmuş təşəkkür məktubunu təqdim edirik.*

**Xəzər Universitetinin təsisçisi,**
**Direktorlar və Qəyyumlar**
**Şurasının sədri**
**professor Hamlet İsaxanlıya**

*Hörmətli Hamlet müəllim!*

Bu il iyirmi illik yubileyini qeyd edən Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bu çərçivədə bir sıra silsilə tədbirlərin keçirilməsini nəzərdə tutmuşdur ki, bunlardan biri də "Uğurlu səhm seçimi" ("Stock Pitch") analitik müsabiqəsinin təşkili olmuşdur. Bakalavr pilləsinin son iki ilində və magistratura pilləsində təhsil alan tələbələrin dörd nəfərlik komandalar şəklində iştirakı ilə baş tutan yarışmada tələbələr sözügedən mövzuda öz mühakimə və təhlil bacarıqlarını nümayiş etdirmiş və nəticələr ARDNF-nin bu sahədə təcrübəli mütəxəssisləri tərəfindən qiymətləndirilmişdir. Ümumilikdə on bir universitetdən altmış üç komandanın iştirak üçün müraciət etdiyi müsabiqənin ümumi uduş fondu 10 000 AZN məbləği təşkil etməklə, birinci, ikinci və üçüncü yerlərin qaliblərinə müvafiq olaraq 5 000, 3 000 və 1 000 AZN məbləğində mükafatlar ayrılmışdır. Bununla yanaşı, final mərhələsində iştirak edən komandaların üzvlərinə müvafiq sertifikatlar təqdim edilmiş və müsabiqədə uğurlu çıxış etmiş iştirakçılara ARDNF-də təcrübə keçmək imkanının verilməsi nəzərdə tutulmuşdur.

Sözügedən müsabiqədə Xəzər Universitetini təmsil edən Xəyalə Şirəliyeva, Mürsəl Qulami, Murad Nuriyev və Məhəmməd Bağırlıdan ibarət "The Intangibles" komandası bütün mərhələlərdə təqdirəlayiq çıxış edərək, toplamda dörd komandanın seçilərək qatıldığı final mərhələsinə yüksəlmişdir. Gərgin rəqabət şəraitində baş tutan final mərhələsində adıçəkilən komanda sonda uğurlu nəticə nümayiş etdirərək, müsabiqəni üçüncü sırada tamamlamışdır.

Qeyd edilənləri nəzərə alaraq, rəhbərlik etdiyiniz təhsil müəssisəsinə ARDNF adından dərin təşəkkürümüzü bildirir və gələcəkdə də bütün işlərinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətlə,*
**Şahmar Mövsümov**
*İcraçı direktor*

*10 iyun 2019*

*We present a letter of gratitude from the State Oil Fund of the Republic of Azerbaijan (SOFAR) on account of "The Intangibles" Team, consisting of the students of Khazar University's School of Economics and Management, won third place in the "Stock Pitch" competition.*

**Professor Hamlet Isakhanli**
**Founder of Khazar University and**
**Chairman of its Board of Directors**
**and Trustees**

*Dear Hamlet Muellim!*

The State Oil Fund of the Republic of Azerbaijan (SOFAR), celebrating its twenty-year anniversary this year, has set up a number of events in this account, one of which was the organization of the "Stock Pitch" analytical competition. Third-year & fourth-years bachelor students and master students forming four-persons team, took part in the competition and thus demonstrated their quick-wittedness and analytical skills in the subject matter. The results were evaluated by the experienced professionals in the field from SOFAR. In general, the total prize fund of the competition for 63 teams from 11 universities was AZN 10,000, and for the winners of the first, second and third places amounts of 5,000, 3,000 and 1,000 AZN were allocated respectively. In addition, the members of the teams participating in the final stage have been awarded with relevant certificates and those who have successfully participated in the competition will be given an opportunity to undertake internship at SOFAR.

The "Intangibles" team, representing Khazar University at the Competition, consisting of Khayala Shiraliyeva, Mursal Gulami, Murad Nuriyev and Mohammad Baghirlidan, demonstrated outstanding performance at all stages, ultimately excelled in the final stage being chosen from four participating teams. In the final stage of the competition, which was intense, the team has finally won the third place, demonstrating successful results.

Taking into account the above mentioned, we express our profound gratitude to the educational institution under your leadership, and wish you continued success in all your future endeavors.

*Sincerely,*
**Shakhmar Movsumov**
*Executive Director*

*June 10, 2019*



## HAMLET İSAXANLININ BİR NEÇƏ ŞEİRİ DƏ SƏSLƏNDİRİLDİ

Tanınmış Azərbaycan teatr və kino aktyoru Kamran M.Yunis yaxın günlərdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının bir neçə şeirini də səsləndirmişdir.

Aşağıdakı keçidlərdən istifadə edərək, şeirləri Kamran M.Yunisin ifasında dinləmək olar:

"Bu da bir həyatdı"
–*https://www.youtube.com/watch?v=6wIYYXqXsQg*
"Tək qalmaq istəyirəm" -
*https://www.youtube.com/watch?v=oKDE3Uc-bvs*
"Baş açmadım bu dünyadan" -
*https://www.youtube.com/watch?v=SEeaT9UtfXU*
"Məndən sonra" -
*https://www.youtube.com/watch?v=3v1z9yRRgk8*
"İstədik" -
*https://www.youtube.com/watch?v=t_dA9KbkAig*
"Könül savaşı" -
*https://www.youtube.com/watch?v=Hb05qvsYmYs*
"Qismət" -
*https://www.youtube.com/watch?v=3EWXh3n20Vo*

## HAMLET ISAKHANLI'S ANOTHER FEW POEMS RECITED

The well-known Azerbaijani theater and movie actor Kamran M.Yunis recently has recited several poems of Prof. Hamlet Isakhanli.

"This is also a life" -
https://www.youtube.com/watch?v=6wIYYXqXsQg
"I want to be alone" -
https://www.youtube.com/watch?v=oKDE3Uc-bvs
"I did not understand this world" -
https://www.youtube.com/watch?v=SEeaT9UtfXU
"After me" -
https://www.youtube.com/watch?v=3v1z9yRRgk8
"We wanted" -
https://www.youtube.com/watch?v=t_dA9KbkAig
"The fight of heart" -
https://www.youtube.com/watch?v=Hb05qvsYmYs
"Foredoom" -
*https://www.youtube.com/watch?v=3EWXh3n20Vo*

## DOKTORANTIN "NEFT VƏ QAZ KONFRANSI"NDA TƏQDİMATI

## PHD STUDENT MADE PRESENTATION AT "OIL & GAS CONFERENCE"

Mayın 31-də Xəzər Universitetinin neft mühəndisliyi üzrə doktorantura tələbəsi Şəhriyar Alxasi Bakıda keçirilən "Neft və qaz konfransı"nda texniki təqdimat keçirdi. Konfransda ARDNŞ, BP, Total, Gazprom, Petranos, Baker Hughes, Inpex kimi bir çox digər beynəlxalq şirkətlər iştirak edirdi.

Şəhriyar Alxasi Xəzər Universitetinin eiLink (Təhsil sənayesi Linki) mərkəzində son tədqiqat işlərinin nümunələrini təqdim etdi. Ş.Alxasi və onun həmkarları, həmin tədqiqat işlərinin nəticəsində, BP-nin yeraltı əməliyyatında qarşılaşdıqları bəzi texniki problemləri uğurla həll etdilər. Bununla yanaşı, konfransda Xəzər Universitetinin eiLink-inin Azərbaycanda neft və qaz sənayelərinə texniki tədqiqat töhfəsi SOCAR-ın vitse-prezidenti Yaşar Lətifov tərəfindən qiymətləndirildi.

On May 31, Mr. Shahriyar Alkhasi, a Ph.D. student majoring in Petroleum Engineering at Khazar University, delivered a technical presentation at the recent Oil & Gas Conference held in Baku. The conference was hosted by SOCAR, and many international companies such as BP, Total, Gazprom, Petranos, Baker Hughes, Inpex, and many others were participating in this conference.

Mr. Alkhasi presented samples of their recent research work at Khazar University's eiLink (education industry Link) center that he and his colleagues have successfully resolved some technical problems and concerns faced by BP's subsurface operation. Also, in this conference, our eiLink's technical research contribution to the Oil & Gas industries in Azerbaijan was acknowledged by the Vice-President of SOCAR, Mr. Yashar Latifov.



## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI TİMİŞOARA UNİVERSİTETİNDƏ

## FELLOWS OF KHAZAR UNIVERSITY VISITED TIMIŞOARA UNIVERSITY

Xəzər Universitetinin əməkdaşları – Kompüter elmləri departamentinin müdiri Dr. Məhəmməd Şərifov, Fizika və elektronika departamentinin müdiri Dr. Nuru Səfərov, İnşaat mühəndisliyi departamentinin müəllimi Dr. Ziaəddin Zamanzadeh və universitetin veb-saytının kontent meneceri Pərvanə Salmanova mayın 26-dan iyunun 2-dək Rumıniyanın Timişoara Politexnik Universitetində Erasmus+ beynəlxalq hərəkətlilik proqramı çərçivəsində işgüzar səfərdə oldular.

Səfər çərçivəsində Timişoara Politexnik Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Diana Balş-Diaconescu, prorektor professor Daniel Dan, Elektrik və güc mühəndisliyi fakültəsinin müdiri dosent Flaviu Frigura-İliasa, Avtomatlaşdırma və kompüter elmləri fakültəsinin müdiri Ciprian-Bogdan Chirila ilə görüşlər keçirildi, universitetlər arasında qarşılıqlı əməkdaşlıq (elm və təhsil sahəsində əməkdaşlıq, ikili dərəcə) barədə müzakirələr aparıldı.

Səfər müddətində əməkdaşlar mühazirələr oxuyub, seminarlar keçirdilər, treninqlərdə iştirak etdilər. Proqram çərçivəsində universitetin zəngin kitabxanası ilə tanış oldular və E-learning mərkəzinin rəhbəri Diana Andone ilə görüşərək, mərkəzin fəaliyyəti ilə əlaqədar müzakirələr apardılar.

From May 26 to June 2, Khazar University staff members - Dr. Mahammad Sharifov, Head of Computer Science Department, Nuru Safarov, Head of Physics and Electronics Department, Ziaaddin Zamanzadeh, Instructor at Civil Engineering Department, and Parvana Salmanova, content manager of the University's website, made a business visit to Timişoara Polytechnic University in Romania, within the framework of Erasmus + international mobility program.

Within the framework of the visit, meetings were held with Diana Balş-Diaconescu, the Coordinator of the International Relations Department of Timişoara Polytechnic University, Professor Daniel Dan, Vice President of the University, Associate Professor Flaviu Frigora- İliasa, Head of Electrical and Power Engineering School, Ciprian-Bogdan Chirila, Head of Automation and Computer Science School, and discussions on mutual cooperation between the universities (cooperation in science and education, double degree programs) took place.

During the trip, the staff delivered lectures and seminars and also participated in trainings. Furthermore, they got acquainted with Universities well-stocked library, and met with Diana Andone, Head of E-Learning Center and conducted discussions regarding Center's activities.





# NANOTEXNOLOGİYA ÜZRƏ BEYNƏLXALQ SEMİNAR






İyunun 3-də Xəzər Universitetinin konfrans zalında Təbiət elmləri və mühəndislik fakültəsinin təşkilatçılığı ilə Nanotexnologiya üzrə beynəlxalq seminar keçirildi. Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Hassan Niknafs seminar iştirakçılarını salamladı və seminarın əhəmiyyətindən söhbət açdı. Sonra seminar oz işinə başladı.

Seminarda professor Andrey Stepanov (Kazan Universiteti, Rusiya), Dr. Mousa Mohammadpourfard (Təbriz Universiteti, İran), professor Taras Kavetsky (Drohobych İvan Franko adına Pedaqoji Dövlət Universiteti, Ukrayna və John Paul II Lublin Katolik Universiteti, Polşa), Dr. Rasoul Moradi (Nano Araşdırmalar Mərkəzi, Xəzər Universiteti), Mariana Kravtsiv (Drohobych İvan Franko adına Pedaqoji Dövlət Universiteti, Ukrayna), Teymur Orucov (Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan) müxtəlif mövzuları əhatə edən təqdimatlarla çıxış etdilər.

Seminarda AMEA Fizika İnstitutunun, Fiziologiya İnstitutunun, Bakı Ali Neft Məktəbinin, Bakı Dövlət Universitetinin əməkdaşları da iştirak edirdilər. Seminar interaktiv müzakirələr şəklində keçdi.

*(Ardı səh.10-da)*





# INTERNATIONAL SEMINAR ON NANOTECHNOLOGY



On June 3, the International Seminar on Nanotechnology was held at Khazar University's Conference Room, organized by the School of Sciences and Engineering. First of all, Hassan Niknafs, Dean of the School of Sciences and Engineering, welcomed seminar participants and talked about the importance of the Seminar. Following that the Seminar started its work. At the seminar, the following experts delivered presentations covering various topics: Professor Andrey Stepanov (Kazan University, Russia), Dr. Mousa Mohammadpourfard (Tabriz University, Iran), Professor Taras Kavetskyy (Drohobych State Pedagogical University of Ivan Franko, Ukraine & John Paul II, Catholic University of Lublin, Poland), Dr. Rasoul Moradi (Nano Research Center, Khazar University), Mariana Kravtsiv (Drohobych State Pedagogical University of Ivan Franko, Ukraine), Teymur Orujov (Ministry of Transport, Communication and High Technologies, Azerbaijan).

The seminar was attended by employees of the Institute of Physics of ANAS, Institute of Physiology, Baku High Oil School and Baku State University. The seminar was held in the form of interactive discussions.

At the end of the Seminar participants took memorable photographs.



*(To be continued page 10)*










International Seminar on Nanotechnology

# İNGİLİS DİLİ ÜZRƏ HAZIRLIQ KURSUNUN SON DƏRSİ

# LAST LESSON OF THE ENGLISH PREPARATION COURSE



İyunun 4-də Xəzər Universiteti əməkdaşları üçün təşkil olunmuş ingilis dili üzrə hazırlıq kursunun bu yarımillikdə son dərsi keçirildi. Müəllim Milana Abbasova son dərsi çay süfrəsi ətrafında qeyd edən həmkarlarını bu münasibətlə təbrik edərək, onlara uğurlar dilədi.

On June 4, the last lesson of the English Language Preparation Course for Khazar University staff was held. Teacher Milana Abbasova congratulated her colleagues on this lesson arranged with the tea party and wished them every success.






## XƏZƏR UNİVERSİTETİNİN KOMANDASI III ROBOT OLİMPİADASININ QALİBLƏRİ ARASINDA

İyunun 4-dən 7-dək Bakıda 8-19 yaşlı yeniyetmə və gənclər arasında keçirilən III Robot Olimpiadasının qalibləri müəyyənləşdi. Olimpiada "INNOFEST" çərçivəsində Gənclər və İdman, Təhsil və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin dəstəyi, Azərbaycan Robototexnika Mühəndisliyi Akademiyasının və "Gənclərin Təhsil, Təlim, Peşə və İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə 6 kateqoriya üzrə keçirilirdi. Aşağı yaş qrupunda (10-15 yaş) "Qarabağ RC" (sərbəst komanda), yuxarı yaş qrupunda (16-19 yaş) isə Bakı Ali Neft Məktəbinin "TechNoBotics" komandaları qalib oldular. Digər kateqoriyalarda –8-12 yaş qrupu üzrə Bakı Müasir Təhsil Kompleksinin (BMTK) "Robo-cop", 13-15 yaş qrupunda "Droger" (BMTK), 16-19 yaşlılarda isə Xəzər Universitetinin "Chicken döner" komandaları qalib adını qazandılar.

Xəzər Universiteti III Robot Olimpiadasında Təbiət elmləri və mühəndislik fakültəsinin Kompüter mühəndisliyi ixtisasının 3-cü kurs tələbəsi Emin Bayramovun ümumi rəhbərliyi ilə "Regular Senior" kateqoriyası üzrə adları qeyd olunan 4 komanda ilə çıxış edirdi:

1."Chicken Döner" (Tamerlan Abdullayev, Tuqay Abdullazadə, Səməd Cabbarlı; komanda rəhbəri: Emin Bayramov);

2."Prime Generation" (Sənan Qulamov, Zaman Kərimov, Məmmədəli Ağabəyli; komanda rəhbəri: Əli Rüstəmov);

3."Bella Ciao" (Fariz Pirmətov, Əlihüseyn İsmayılov, Nicat Ələmmədov; komanda rəhbəri: Məhəmməd Məmmədli);

4."De-Bug" (Kənan Məmmədov, Razi Mirzəzadə, Rəhim Əsədov; komanda rəhbəri: Vüsal İsmaylıov).

Qalib komandalar noyabrın 8-dən 10-dək Macarıstanda keçiriləcək Dünya Robot Olimpiadasında iştirak hüququ qazandılar.

Qeyd edək ki, dünyanın ən böyük robototexnika yarışı olan Dünya Robot Olimpiadası 2004-cü ildən etibarən hər il fərqli mövzular üzrə müxtəlif ölkələrdə keçirilir. İlk dəfə Sinqapurda təşkil edilən bu Olimpiadada 12 ölkə iştirak etmişdi. Hazırda iştirakçıların sayı 70-dən artıqdır.

Xatırladaq ki, Azərbaycan 2017-ci ilin sonunda Dünya Robot Olimpiadasının həqiqi üzvlüyünə qəbul edilmişdir.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

*https://azertag.az/xeber/III_Robot_Olimpiadasinin_qalibleri_mueyyenlesib-1292014*

## KHAZAR UNIVERSITY TEAM IS AMONG WINNERS OF III ROBOTICS OLYMPIAD

The winners of the III Robotics Olympiad were selected among teenagers and youth aged 8-19, held in Baku from June 4-7. The Olympiad was supported by Ministry of Youth and Sports of the Republic of Azerbaijan, the Ministry of Education and the Ministry of Transport, Communication and High Technologies within the framework of "INNOFEST", and organized by the Azerbaijan Robotics Engineering Academy and the "Youth Education, Training, Vocational and Development Center" Public Union. The competition covered 8-19-year-old teenagers and young people and was held in 6 categories. In the younger age group (10-15 years old) "Garabagh RC" (freestyle team) became a winner and in the older age group (16-19 years) "TechNoBotics" teams of the Baku Higher Oil School won. Other categories included "Robo-cop" of the Baku Modern Education Complex (BMEC) (8-12 years age group), "Droger" (BMEC) (13-15 years age group) and "Chicken Doner" from Khazar University (16-19 years age group).

At the III Robotics Olympiad, Khazar University performed being represented by four teams, general led by Emin Bayramov, 3rd year student, majoring in Computer Engineering from the School of Sciences and Engineering. The teams under the "Regular Senior" category are as follows:

1."Chicken Doner" (Tamerlan Abdullayev, Tuqay Abdullazade, Samad Jabbarlı; Team Leader: Emin Bayramov);

2."Prime Generation" (Sanan Gulamov, Zaman Kerimov, Mammadali Aghabeyli; Team Leader: Ali Rustamov);

3."Bella Ciao" (Fariz Pirmatov, Alihuseyn Ismayilov, Nijat Alemmedov; Team Leader: Mahammad Mammadli);

4."De-Bug" (Kenan Mammadov, Razi Mirzazade, Rahim Asadov; Team Leader: Vusal Ismayilov).

The winners won the right to participate in the World Robot Olympics to be held in Hungary on November 8-10.

It should be noted that the world's largest robotics competition, the World Robotics Olympiad, has been held annually since 2004 in different countries, dedicated to various themes. While being held for the first time in Singapore, 12 countries participated in this Olympiad. At present there are more than 70 participants.

We remind that Azerbaijan was admitted to the full membership of the World Robot Olympics by the end of 2017.

More information can be found through the following link:

*https://azertag.az/xeber/III_Robot_Olimpiadasinin_qalibleri_mueyyenlesib-1292014*

## PROFESSOR HAMLET İSAXANLI TANINMIŞ RİYAZİYYATÇININ YUBİLEYİNDƏ ÇIXIŞ ETDİ

İyunun 7-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı görkəmli Azərbaycan riyaziyyatçısı Mirabbas Qasımovun 80 illik yubileyinə həsr olunmuş konfransda iştirak etdi. AMEA Riyaziyyat və Mexanika İnstitutunda təşkil olunmuş konfransda professor İsaxanlı "Kvadratik formalar və operatorların spektral nəzəriyyəsi" mövzusunda məruzə etdi. O, çıxışı zamanı öz tələbəlik illəri, Mirabbas Qasımovla görüşləri, aldığı dərslər haqqında xatirələrdən də danışdı.

## HAMLET ISAKHANLI DELIVERED TALK AT PROMINENT MATHEMATICIAN'S JUBILEE

On the 7th of June, Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, took part in the Conference dedicated to the 80th anniversary of the prominent Azerbaijani mathematician Mirabbas Qasimov. Prof. Isakhanli delivered a speech on "Quadratic Forms and Spectral Theory of Operators" in the Conference organized in the ANAS Institute of Mathematics and Mechanics. Besides, within his speech, he shared his memories of his student life, meetings with Mirabbas Qasimov, and his lessons in the university.





# TƏSVİRİ VƏ TƏTBİQİ İNCƏSƏNƏT MÜSABİQƏSİNİN SƏRGİSİ

İyunun 7-də Bakının tarixi və əsrarəngiz guşəsi olan İçərişəhərdə Xəzər Universiteti ilə qarşılıqlı əməkdaşlığı olan "Şəhər incəsənəti. Azərbaycan" açıq ictimai incəsənət layihəsi çərçivəsində "Qədim şəhərin müasir çaları ol!" adlı təsviri və tətbiqi incəsənət müsabiqəsinin tanışlıq sərgisi keçirildi. Qeyd olunan layihə Xəzər Universiteti ilə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyəti yanında Gənc Alim və Mütəxəssislər Şurası, Memarlıq və İncəsənət İnstitutu, Arxeologiya və Etnoqrafiya İnstitutu və Milli Azərbaycan Tarixi Muzeyi, Qobustan Milli Tarix-Bədii Qoruğu, Mirzə Ələkbər Sabir Fondu, "Nur Art House" qalereyası və Azərbaycan Arxeoloqlar Cəmiyyəti İB tərəfindən dəstəklənir.

Tədbirin hazırlanmasında və təşkilində "Nur Art House" qalereyasının və Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri fəal iştirak etmişdilər.

Sərgini açan layihənin yaradıcı heyətinin rəhbəri Səidə Musayeva, ilk olaraq, gənc rəssamları və onların əsərlərini təqdim etdi. Sonra tədbirin aparıcısı sözü qalereyanın rəhbəri, UNESCO-nun Azərbaycan üzrə sənətşünas eksperti, sənətşünaslıq elmləri doktoru, professor Röya Tağıyevaya verdi. Layihənin tərəfdaşı olan Qobustan Milli Tarixi-Bədii Qoruğunun baş mühafizi Fikrət Abdullayev və Mirzə Ələkbər Sabir Fondunun direktoru dosent Sevda Tahirli çıxış etdilər.

Tədbir açıq ictimai incəsənət layihəsinin növbəti mərhələsinin məntiqi və uğurlu yekunu oldu.







# EXHIBITION OF FINE ARTS AND APPLIED ARTS

On June 7, within the framework of the Open Public Art Project, "City Art. Azerbaijan" an Introductory Fair of the Fine Arts and Applied Art Contest entitled "Be the modern color of the Ancient City!" was held in the city of Icherisheher, which is a historical and mysterious corner of Baku. This project, along with Khazar University, is supported by Presidium of the National Academy of Sciences of Azerbaijan (ANAS), the Young Scientists and Specialists Council under the Presidium of ANAS, the Institute of Architecture and Art, the Archeology and Ethnography Institute and the National History Museum of Azerbaijan, the Gobustan State Historical-Artistic Reserve, Mirza Alakbar Sabir Foundation, "Nur Art House" Gallery and Azerbaijan Archaeological Society Public Union.

In the event preparation and organization, "Nur Art House" and students from the Faculty of Humanities, Education and Social Sciences of Khazar University took an active part.

Saida Musayeva, the project's creative team leader, opening the Exhibition initially presented young artists and their works. Following that, the event moderator gave the word to Professor Roya Tagiyeva, the Head of the gallery, UNESCO arts expert on Azerbaijan, Doctor of Art Science. Further on, Fikret Abdullayev, Head guardian of the Gobustan National Historical-Artistic Reserve, and Associate Professor Sevda Tahirli, Director of the Mirza Alakbar Sabir Foundation, delivered speeches.

The event became a logical and successful outcome of the Open Public Art Project's next stage.





# HAVANIN KEYFİYYƏTİ ÖLÇÜLDÜ
# AIR QUALITY MEASURED

2019-cu ilin iyununda yaradılmış Xəzər Hava Keyfiyyəti Laboratoriyası iyunun 5-dən 7-dək Bakı şəhərində və bəzi şəhərətrafı qəsəbələrdə açıq hava keyfiyyətinin monitorinqini aparmışdır. Monitorinq nəticələri Avropa Hava Keyfiyyəti İndeksi ilə beş ballıq şkala ilə qiymətləndirilmişdir.

***1-Çox yaxşı, 2-Yaxşı, 3-Orta, 4-Pis, 5-Çox pis***

Alınan nəticələr aşağıdakı kimi olmuşdur:

1. "Neftçilər" metro stansiyası yaxınlığı–5
2. "Qara Qarayev" metro stansiyası yaxınlığı–4
3. "Koroğlu" metro stansiyası yaxınlığı–5
4. "N.Nərimanov" metro stansiyası yaxınlığı–4
5. "Gənclik" metro stansiyası yaxınlığı–5
6. "28 May" metro stansiyası yaxınlığı–4
7. "Sahil" metro stansiyası yaxınlığı–5
8. "İçərişəhər" metro stansiyası yaxınlığı–4
9. "Nizami" metro stansiyası yaxınlığı–5
10. "20 Yanvar" metro stansiyası yaxınlığı–5
11. "Memar Əcəmi" metro stansiyası yaxınlığı–5
12. "Xətai" metro stansiyası yaxınlığı–4
13. Xırdalan şəhəri–4
14. Buzovna qəsəbəsi–1.

Qeyd edək ki, "Neftçilər", "Gənclik", "Nizami", "20 Yanvar","Sahil","Koroğlu" və"Memar Əcəmi" metro stansiyaları yaxınlığına Azot-2-Oksidlə çirklənmə normadan 4-5 dəfə çox olmuşdur. Ən yaxşı hava keyfiyyəti Buzovna qəsəbəsində qeydə alınmışdır.

**Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamenti**

Khazar Air Quality Lab, established in June 2019, has monitored air quality in Baku and some suburban settlements. Sampling results were assessed by the European Air Quality Index with a five-point scale.

**1-Very good, 2-Good, 3-Medium, 4-Poor, 5-Very bad**

The results were as follows:

1. Nearby "Neftchilar" metro station-5
2. Nearby "Gara Garayev" metro station-4
3. Nearby "Koroglu" metro station - 5
4. Nearby "N.Narimanov" metro station-4
5. Nearby "Ganjlik" metro station -5
6. Nearby "28 May" metro station-4
7. Nearby "Sahil" metro station- 5
8. Nearby "Icherisheher" metro station-4
9. Nearby "Nizami" metro station-5
10. Nearby "20 January" metro station-5
11. Nearby "Memar Ajami" metro station -5
12. Nearby "Khatai" metro station-4
13. Nearby Khirdalan city-4
14. Nearby Buzovna settlement-1.

It should be noted that pollution with Nitrogen-2-Oxide nearby "Neftchilar", "Ganjlik", "Nizami", "20 January","Sahil", "Koroglu" and "Memar Ajami" metro stations was 4-5 times above the norm. The best air quality was recorded in Buzovna settlement.

**Department of Geography and Environment of the Khazar**



# NEFTÇALA MƏKTƏBLİLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

İyunun 8-də Neftçala rayonunun "Kitabın işığı" Hazırlıq Mərkəzinin təşkil etdiyi bilik yarışının qalibləri Xəzər Universitetinin dəvətilə univeritetə səfər etdilər.

Səfərdə şagirdlərlə yanaşı, bir neçə müəllim və məktəb direktoru da iştirak edirdi. Qonaqlar universitetlə, onun kitabxanası və auditoriyaları ilə tanış olduqdan sonra nahar etdilər. Nahardan sonra universitetin Mərmər zalında Tələbələrin cəlb olunması üzrə işçi qrupun rəhbəri professor Fuat Rəsulov qonaqlara video-klip müşayiəti ilə universitet barəsində ətraflı məlumat verdi.

Qonaqlara Xəzər Universitetinin bukletləri və digər vəsait paylandı.

# STUDENTS FROM NETCHALA VISITED KHAZAR UNIVERSITY

On June 8, the winners of the knowledge contest, organized by the "Kitabın işığı" Preparatory Center of Neftchala Region, visited Khazar University upon its invitation.

Along with the students, several teachers and school principals attended this visit. After getting familiarized with the University, its library and auditoriums, a dinner was organized for the guests. After the dinner, Professor Fuad Rasulov, Head of the Working Group on Attracting Students to Khazar University made a presentation with a video-clip and detailed information about the University at the Marble Hall.

The guests have received numerous booklets and other information from the Khazar University.




## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI NÖVBƏTİ "POZİTİV PSİXOTERAPİYA" TƏLİMİNDƏ

## KHAZAR UNIVERSITY'S EMPLOYEE TAKES PART IN SUBSEQUENT TRAINING ON "POSITIVE PSYCHOTHERAPY"

İyunun 7-dən 9-dək Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova Almaniyanın Visbaden Psixoterapiya Akademiyası, Avropa Psixoterapiya Assosiasiyası və "Olgu" Psixoloji Xidmət Mərkəzinin dəstəyi ilə keçirilən "Pozitiv psixoterapiya" təliminin 2-ci modulunun 30 saatlıq təlimini tamamladı.

Təlim "Nefes" Psixolonevroloji Sağlamlıq Mərkəzində təşkil edilmişdi. Təlimi "Dünya" Pozitiv Psixoterapiya Assosiasiyasının səlahiyyətli təlimçisi Özden Bilgin keçirdi.

Təlimin əsas hissəsi 5 moduldan ibarətdir. Təlimin digər modulları oktyabrın sonunadək davam etdiriləcək.

From June 7-9, Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University and Director of the Center for Psychological Service completed 2nd module of 30-hour training on "Positive Psychotherapy", organized with the support of the German Wiesbaden Psychotherapy Academy and European Association for Psychotherapy and also the Psychological Service Center "Olgu".

The training was held at the Psycho-neurological Health Center "Nefes". The training was conducted by Ozden Bilgin, the authorized trainer of the "Dunya" Positive Psychotherapy Association.

The main part of the training consists of 5 modules. Other modules of the training will be continued until the end of October.

## RİYAZİYYAT SAHƏSİNDƏ DAHA BİR ELMİ MƏQALƏ ÇAP OLUNDU

## ANOTHER SCIENTIFIC ARTICLE IN THE FIELD OF MATHEMATICS PUBLISHED

Riyaziyyat Departamenti Xəzər Universiteti adından yüksək impakt faktorlu jurnallarda məqalə çapı istiqamətində fəaliyyətini davam etdirir. Son olaraq daha bir məqalə (Rashid A.Aliev, Aynur F.Amrahova, Properties of the Discrete Hilbert Transform, Complex Analysis and Operator Theory, 2019) Clarivate Analytics (əvvəlki adı Thomson Reuters) siyahısına daxil olan yüksək impakt faktorlu *"Complex Analysis and Operator Theory"* jurnalında çap olunmuşdur.

Beləliklə, cari 2018/2019-cu tədris ilində Riyaziyyat Departamenti əməkdaşlarının Xəzər Universiteti adından Clarivate Analytics siyahısına daxil olan yüksək impakt faktorlu jurnallarda çap olunan məqalələrinin ümumi sayı 10-dur.

The Department of Mathematics at Khazar University continues its work on publishing articles in the journals with high impact factor. Recently another article by employees of the Department (Rashid A.Aliev, Aynur F.Amrahova, Properties of the Discrete Hilbert Transform, Complex Analysis and Operator Theory, 2019) was published in the *"Complex Analysis and Operator Theory"* journal with a high impact factor, which is included to *"Clarivate Analytics"* (formerly *Thomson Reuters)* list of journals.

It should be noted that, in the current 2018/2019 academic year, the total number of articles, published by the Department of Mathematics on behalf of Khazar University in the Journals with a high impact factor, which are included to *"Clarivate Analytics"* (formerly *Thomson Reuters*) list of journals, amount to 10 articles.




# PROFESSOR HAMLET İSAXANLI FƏLSƏFƏ İNSTİTUTUNDA ÇIXIŞ ETDİ

# PROFESSOR HAMLET ISAKHANLI DELIVERED SPEECH AT PHILOSOPHY INSTITUTE

İyunun 10-da AMEA-nın Fəlsəfə İnstitutunda keçirilmiş "Aristotel fəlsəfəsinin müasir interpretasiyaları" mövzusunda elmi seminarda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış etdi.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

*https://azertag.az/xeber/Aristotel_felsefesinin_muasir_interpretasiyalari_movzusunda_elmi_seminar_kechirilib-1292866*

On June 10, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a speech at the Scientific Seminar on "Modern interpretations of Aristotle's philosophy", held at the Institute of Philosophy of ANAS.

More information can be found on this link:

*https://azertag.az/xeber/Aristotel_felsefesinin_muasir_interpretasiyalari_movzusunda_elmi_seminar_kechirilib-1292866*



# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 71-Cİ MƏŞĞƏLƏSİ

# 71st SESSION OF THE ASSEMBLY OF "SCIENCE AND ART"

İyunun 11- də Xəzər Universitetində ənənəvi "Elm və Sənət Məclisi"nin 71- ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açdı. O, məclisə toplaşanları səmimi salamlayaraq, Türkiyənin Niğde Ömer Halisdemir Universitetinin professoru, divan ədəbiyyatının tanınmış araşdırmaçısı Ziya Avşar haqqında geniş məlumat verdi və onu iştirakçılara təqdim etdi.

Professor Ziya Avşar "Mövlanənin eşq və irfan dünyası" adlı geniş elmi məruzə ilə çıxış etdi. Sonra məruzə ətrafında müzakirələrə başlandı. Müzakirələrdə Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədova, Psixologiya departamentinin koordinatoru Mələk Kərimova, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr.Bahman Amani (Xəzər Universiteti), türkoloq, dosent Seyfəddin Altaylı (Avrasiya Universiteti), Folklor İnstitutu Xarici ölkələrlə əlaqələr bölməsinin rəhbəri Əli Şamil (AMEA), professor Şahin Mustafayev (AMEA-nın Şərqşünaslıq İnstitutu), Afaq Qəmbərova ("Dünya" məktəbi), tarixçi və tərcüməçi Şahin Fazil (AMEA-nın Tarix İnstitutu), Bədirxan Əhmədov (AMEA-nın Ədəbiyyat İnstitutu) Bəhram Oromi (İş adamı ), Səadət Şıxıyeva (AMEA-nın Şərqşünaslıq İnstitutu), Nizami Muradov (AMEA-nın Folklor İnstitutu), Turanxanım Hümbətova (Nizami adına Ədəbiyyat Muzeyi) və digərləri çıxış etdilər.

Sonda Hamlet İsaxanlı çox maraqlı məruzə üçün Ziya Avşara və bütün iştirakçılara Xəzər Universiteti adından təşəkkür etdi.

2019-cu il iyunun 12-də *kontakt.az* saytında məclisin bu məşğələsi haqqında xəbər yayımlanıb. Xəbəri bu linkdə oxumaq olar:
***http://www.contact.az/ext/news/2019/6/free/Social/az/81633.htm***

On June 11,the 71st Session of the traditional "Assembly of Science and Art" was held at Khazar University. The Session was opened by Professor Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees. He cordially welcomed the participants of the Assembly and gave information about Ziya Avşar, Professor of the Niğde Ömer Halisdemir University in Turkey, the well-known researcher of Divan Literature. Professor Ziya Avşar delivered an extensive scientific lecture on "Mevlana's World of Love and Wisdom". Then discussions took place on this report and following participants delivered their speeches: Associate Professor Elza Samedova, Dean of the School of Humanities, Education and Social Sciences, Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University, Dr. Bahman Amani, Head of English Language and Literature Department (Khazar University); Associate Professor Seyfaddin Altayli, turcologist (Eurasia University), Ali Shamil, Head of the International Affairs Office (Folklore Institute of ANAS), Professor Shahin Mustafayev (Institute of Oriental Studies of ANAS), Afag Gambarova ("Dunya" School), historian and translator Shahin Fazil (History Institute of ANAS), Badirkhan Ahmadov (BSU , Bahram Oromi (Businessman), Seadat Shikhiyeva (Institute of Oriental Studies of ANAS), Nizami Muradov (Folklore Institute of ANAS), Turankhanim Humbatova (Literature Museum named after Nizami) and others.

At the end of the session, Hamlet Isakhanli expressed his gratitude on behalf of Khazar University to Ziya Avşar and all the participants for a very interesting report.

On June 12, 2019, the news release was published on the kontakt.az website about this Session of the Assembly. The news can be read on this link:
***http://www.contact.az/ext/news/2019/6/free/Social/az/81633.htm***















# DOKTORANTIN ELMİ İŞİNİN İLKİN MÜZAKİRƏSİ KEÇİRİLDİ

# PRELIMINARY DISCUSSION OF DOCTORAL THESIS OF PHD STUDENT WAS HELD

İyunun 11-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini, İngilis dili və ədəbiyyatı departamentinin 5708.01–"German dilləri" ixtisası üzrə doktorantı Validə Kərimovanın "Noam Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatları konsepsiyası" adlı elmi tədqiqat işinin ilkin müzakirəsi keçirildi. Magistratura, doktorantura və elmi işlər bölməsinin koordinatoru Cabir Məmmədli tədbiri açaraq, doktorantın elmi fəaliyyəti, təqdim edilən sənədləri barədə ətraflı məlumat verdikdən sonra, doktorant öz elmi işinin aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, aprobasiyası, quruluşu və qısa məzmunu ilə bağlı izahat verdi. Sonra doktorant ekspertlərin suallarını cavablandırdı, qeyd olunan irad və təkliflərə münasibət bildirdi.

Dissertasiya işinin müzakirəsində Xəzər Universitetinin əməkdaşları ilə yanaşı, ADU-nun professoru Fəxrəddin Veysəlli (elmi rəhbər), həmin universitetin Qrammatika kafedrasının müdiri professor Arif Hüseynov, İngilis dilinin leksikologiyası və üslubiyyatı kafedrasının dosenti İradə Səmədova, Metodika kafedrasının baş müəllimi Dr. Elmira Əliyeva, Azərbaycan Universitetinin Xarici dillər kafedrasının müdiri Dr. Samirə Məmmədova, AzTV kanalının baş mütəxəssisi Dr. Tariyel Abbasov və başqaları iştirak edirdilər.

Müzakirənin sonunda Validə Kərimovanın "Noam Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatları konsepsiyası" adlı elmi tədqiqat işinin Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verdiyi qeyd olundu və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün növbəti mərhələyə keçirilməsinə qərar verildi.

On June 11, preliminary discussion of the scientific research work entitled "The Concept of Lower and Upper Layers of the Syntactic Structures of Noam Chomsky" by Valida Kerimova, Vice-Dean School of Humanities, Education and Social Sciences, PhD student, majoring in "German languages" - 5708.01 at the English Language and Literature Department, was held. Jabir Mammadli, the Coordinator of the Division of Graduate Studies and Research, in his opening statement gave a detailed information about the doctoral student's research activity and the documents submitted. Following that, the doctoral candidate provided information about her scientific work, particularly about the significance and relevance of the research work, its scientific novelty, goals and objectives, approbation, structure and a brief content. Further on, doctoral candidate answered the questions and commented on the remarks and suggestions mentioned.

Alongside with Khazar University's staff, thesis discussion session was attended by Fakhraddin Veyselli, (scientific supervisor) Professor at Azerbaijan State University (ASU), including following faculty members from ASU: Professor Arif Huseynov, Head of the Department of Grammar, Irada Samedova, Associate Professor of English Lexicology and Stylistics, Dr. Elmira Aliyeva, Senior Teacher at the Methodology Department; also Dr. Samira Mammadova, Head of Foreign Languages Department of Azerbaijan University, and Tariyel Abbasov, Chief Specialist of AzTV Channel and others.

At the end of the discussion it was agreed that Valida Kerimova's doctoral thesis entitled "The Concept of Lower and Upper Layers of the Syntactic Structures of Noam Chomsky", meets the requirements of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan and it was decided to pass it to the next stage, for the candidate to obtain PhD degree in Philosophy.

## "XƏZƏR"İN MƏZUNU YENİ VƏZİFƏYƏ TƏYİN EDİLİB

## KHAZAR UNIVERSITY GRADUATE ASSIGNED TO NEW POSITION



Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədovun müvafiq əmrinə əsasən Elgün Sahib oğlu Seyidov Şəmkir Rayon İcra Hakimiyyəti aparatında İnformasiya təminatı və təhlili sektorunun müdiri vəzifəsinə təyin edilib. Bu təyinatadək o, həmin aparatda Humanitar və ictimai-siyasi məsələlər şöbəsinin baş məsləhətçisi vəzifəsində çalışırdı.

Elgün Seyidov Xəzər Universitetinin Humanitar və Sosial Elmlər fakültəsinin jurnalistika ixtisası üzrə məzunudur.

Ölkə mediası bu barədə xəbər yaymışdır:

*https://musavat.com/news/semkir-rayon-icra-hakimiyyetinde-daha-bir-genc-yuksek-vezifeye-teyin-edildi_620709.html*

*https://sonxeber.az/138105/semkir-icra-hakimiyyetinde-yeni-teyinat*

*http://qafqazinfo.az/news/detail/semkir-icra-hakimiyyetinde-yeni-teyinat-255150* və s.

According to the corresponding order of Alimpasha Mammadov, the Head of Shamkir District Executive Power, Elgun Sahib oglu Seyidov has been appointed as the Director of the Information and Analysis Sector of Shamkir District Executive Power. Prior to this appointment, he worked as a Head Advisor of the Humanitarian and Social and Political Affairs Department at the same apparatus.

Elgun Seyidov is a graduate of Khazar University's School of Humanities and Social Sciences, majoring in journalism.

The country's media has spread information on this account:

*https://musavat.com/news/semkir-rayon-icra-hakimiyyetinde-daha-bir-genc-yuksek-vezifeye-teyin-edildi_620709.html*

*https://sonxeber.az/138105/semkir-icra-hakimiyyetinde-yeni-teyinat*

*http://qafqazinfo.az/news/detail/semkir-icra-hakimiyyetinde-yeni-teyinat-255150*

## HAMLET İSAXANLININ "BAKI" ŞEİRİ MAHNI OLDU

## HAMLET ISAKHANLI'S POEM "BAKU" BECAME SONG

Azərbaycanın xalq artisti, muğam ustası Alim Qasımov Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Bakı" şeirinin sözlərinə mahnı hazırlamış və ifa etmişdir.

Alim Qasımovun ifasında səslənən "Bakı" mahnısını bu link vasitəsilə dinləmək olar:

*http://khazar.org/uploads/news/18_06_2019/Alim_Qasimov.mp4*

Alim Gasimov, the prominent People's Artist of Azerbaijan, world-renowned mugham master, prepared a song named "Baku" on the poem of Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, and sang it.

Via the link below you can listen to the rendition of the song "Baku" by Alim Gasimov:

*http://khazar.org/uploads/news/18_06_2019/Alim_Qasimov.mp4*





# GÖRKƏMLİ RİYAZİYYATÇI ALİM BORİS MİTYAQİNƏ XƏZƏR UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM OLUNDU

İyunun 12-də Xəzər Universitetinin Mərmər salonunda Rusiya və ABŞ-ın görkəmli riyaziyyatçı alimi, ABŞ-ın Ohayo Dövlət Universitetinin professoru Boris Mityaqinə Xəzər Universitetinin Fəxri doktoru diplomunun təqdim olunması münasibətilə mərasim keçirildi. Mərasimdə Xəzər Universitetinin rəhbərliyi, Elmi Şurasının üzvləri və əməkdaşları, universitetdə keçirilən 2-ci "Riyazi fizikanın operatorları, funksiyaları və sistemləri" (RFOFS) beynəlxalq konfransına gəlmiş yerli və xarici mütəxəssislər iştirak edirdilər.

Konfransı Xəzər Universitetinin Riyaziyyat departamentinin müdiri Dr. Əli Hüseynli açıq elan edəndən sonra Xəzər Universiteti haqqında təqdimat filmi nümayiş etdirildi.

Xəzər Universitetinin rektoru, Elmi Şuranın sədri dosent İradə Xəlilova çıxış edərək, iştirakçıları salamladı və Universitet Elmi Şurasının 8 may 2019-cu il tarixli qərarı ilə Boris Mityaqinə riyaziyyat və onun tətbiqində göstərdiyi görkəmli xidmətlərə görə Xəzər Universitetinin Fəxri doktoru adı verildiyini bildirdi və alimi təbrik etdi.

ADA Universitetinin professoru, Boris Mityaqinin aspirantı olmuş Fərhad Hüseynov çıxışında alimin fəaliyyəti, funksional analiz və riyazi iqtisadiyyat sahəsindəki tədqiqatları haqqında danışdı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı geniş nitq söyləyərək, müasir dövrdə riyaziyyat elminin inkişaf istiqamətlərindən və bu prosesdə Boris Mityaqinin fəal iştirakından söz açdı və alimə Xəzər Universitetinin Fəxri doktoru diplomunu təqdim etdi.

Sonda Boris Mityaqin çıxış edərək, Xəzər Universiteti tərəfindən əməyinə verilən yüksək qiymətə görə universitet rəhbərliyinə və iştirakçılara minnətdarlığını bildirdi.

İştirakçılara Xəzər universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin konsert proqramı təqdim olundu.









# PROMINENT MATHEMATICIAN BORIS MITYAGIN AWARDED THE TITLE OF HONORARY DOCTOR OF KHAZAR UNIVERSITY

On June 12, a Ceremony on the occasion of awarding the Title of Honorary Doctor of Khazar University to Boris Mityagin, Russian-American prominent mathematician scientist, Professor of Ohio State University, was held at the Khazar University's Marble Hall. The Ceremony was attended by Khazar University Leadership, members and staff of the Scientific Council, scientists and experts from Azerbaijan and foreign countries, taking part in the 2nd International Conference on "Operators, Functions, and Systems of Mathematical Physics" (OFSMP),

After the Conference was opened by Dr. Ali Huseynli, Head of the Mathematics Department at Khazar University, a presentation film about Khazar University was demonstrated.

Associate Professor Irada Khalilova, Rector of Khazar University, delivering speech welcomed the participants and informed that by the decision of the Academic Council of the University on May 8, 2019, Boris Mityagin was awarded the Title of Honorary Doctor of Khazar University for the remarkable contributions to mathematics and its application.

Farhad Huseynov, Professor at ADA University and post-graduate student of Boris Mityagin, spoke about scientist's activities, and his research in the field of functional analysis and mathematical economics.

Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees delivering an extensive talk, spoke about the multifaceted development of mathematical sciences in modern times and Boris Mityagin's active participation in this process and presented him the Diploma of the Honorary Doctor of Khazar University.

Finally, Boris Mityagin in his statement expressed appreciation to the University Leadership and the participants for high evaluation of his work by Khazar University.

The concert program of the Camera Orchestra of the University was presented to the participants, led by Zulfiyya Sadigova, Associate Professor Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, honored teacher, pianist.





# BRİTANİYA UNİVERSİTETLƏRİNİN MƏZUNLARI GÖRÜŞDÜLƏR

# BRITISH UNIVERSITIES ALUMNI MEETING

İyunun 14-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə, Beynəlxalq münasibətlər ofisinin koordinatoru Lamiyə Pənahova və assistenti İnçə Əliyeva Birləşmiş Krallıqda təhsil almış məzunlarla British Council təlimçiləri arasında əlaqələri möhkəmləndirmək üçün səfir xanım Carole Crofts-un, eləcə də, British Council direktoru Summer Xia-nın iştirakı ilə baş tutan "Networking event"-də iştirak etdilər.

Görüş zamanı müxtəlif universitetlərin məzunları ilə gələcək mümkün layihə və ideyalar haqqında müzakirələr aparıldı.

On June 14, Nilufar Alizade, Instructor of Psychology Department, Lamiya Panahova, Coordinator of International Relations Office at Khazar University, and Assistant Incha Aliyeva, took part in the meeting of Dr. Carole Crofts, British Ambassador, with the UK Universities Alumni "Networking event", with the participation of Summer Xia, Director of British Council, aimed at enhancing relations between alumni and British Council's trainers. During the meeting, discussions were held on possible projects and ideas with the graduates of different universities.

# BEYNƏLXALQ İNFORMATİKA OLİMPİADASINDA ÖLKƏMİZİ "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDİ DƏ TƏMSİL EDƏCƏK

# STUDENT OF "DUNYA" SCHOOL TO REPRESENT COUNTRY AT THE INTERNATIONAL INFORMATICS OLYMPIAD

2019-cu il avqustun 4-11-də Azərbaycanda keçiriləcək Beynəlxalq İnformatika Olimpiadasında (IOI 2019) ölkəmizi təmsil edəcək komandalar müəyyənləşib. Azərbaycan bu yarışmada iki komanda ilə təmsil olunacaq. Birinci komandaya Təhsil Nazirliyinin tabeliyindəki Fizika-riyaziyyat və informatika təmayüllü liseyin şagirdləri Abutalıb Namazov, Murad Eynizadə, İbrahim Tağızadə, nazirliyin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin şagirdi Fərhad Əzimov, ikinci komandaya isə nazirliyin tabeliyindəki Fizika-riyaziyyat və informatika təmayüllü liseyin şagirdi Fatimə Ömərova, Xəzər Universitetinin nəzdindəki "Dünya" məktəbinin şagirdi Əziz Hüseynov, nazirliyin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin şagirdi Hüseyn Hacıyev və Bakı şəhəri 269 nömrəli tam orta məktəbin şagirdi Amin Cəlilov daxildirlər.

Qeyd edək ki, ölkəmizi bu olimpiadada təmsil edəcək komandaları müəyyənləşdirmək məqsədi ilə iki seçim imtahanı keçirilib. Seçim imtahanlarına Respublika fənn olimpiadalarında informatika fənni üzrə qalib olan şagirdlər dəvət edilib.

Bu barədə 2019-cu il iyunun 14-də "Azərbaycan müəllimi" qəzetinin internet səhifəsində də xəbər yayımlanıb: *https://muallim.edu.az/news.php?id=6222*

Teams that will represent our country in the International Informatics Olympiad (IIO 2019) to be held in Azerbaijan on 4-11 August 2019, are defined. Azerbaijan will be represented by two teams in this competition.

The first team includes Abutalib Namazov, Murad Eynizade, Ibrahim Taghizade, students from Physics, Mathematics and Informatics Lyceum under the Ministry of Education; Farhad Azimov, Lyceum named after academician Zarifa Aliyeva under the Ministry. As for the second team, it includes Fatima Omarova, student from Physics, Mathematics and Informatics Lyceum under the Ministry; Aziz Huseynov, "Dunya" School under Khazar University; Huseyn Hajiyev, Lyceum named after academician Zarifa Aliyeva under the Ministry; and Amin Jalilov, student from secondary school number 269 of Baku.

It should be noted that two qualifying exams were held to determine the country's teams to represent in the Olympiad. The winners of the Republican Subject Olympiads on informatics were invited to the exams.

This was reported on June 14, 2019 in the website of the "Azerbaijan Teacher" newspaper:

*https://muallim.edu.az/news.php?id=6222*

## "AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALININ NÖVBƏTİ SAYI ÇAPDAN ÇIXIB

Xəzər Universitetinin nəşri olan "Azərbaycan arxeologiyası" jurnalının yeni sayı (Cild: 22, Say: 1, 2019) çapdan çıxmışdır. Jurnalda Azərbaycan arxeoloqları ilə yanaşı, əcnəbi arxeoloqların da məqalələri yayımlanmışdır.

Jurnalda yerli müəlliflərdən Yaqub Məmmədovun "Azıx adamı və onun Homo sistemdə yeri", Zeynəb Quliyevanın "Naxçıvanın eneolit dövrü keramikasının texniki və ornamental xüsusiyyətləri", Pərviz Qasımovun "Menteştəpə İlk Tunc dövrü kurqanı: xronoloji paradoks", Orxan Zamanovun "Azərbaycan arxeologiya elmi 1945-1990-cı illərdə Avropa ilə akademik mədəniyyətlər və elmi biliklərin mübadiləsi çərçivəsində", Şamil Nəcəfovun "Tunc dövründə sosial-iqtisadi inkişaf və əhali məskunlaşması problemi (Gəncə-Qazax bölgəsi abidələri üzrə etnoarxeoloji tədqiqat)", Toğrul Xəlilovun "Tunc dövrü qablarının rənglənmə texnikası haqqında", İradə Avşarovanın "Azərbaycanın tunc dövrü qəbir abidələrində "Günəş" inancı izləri" adlı məqalələri bu sayda yer almışdır. Əcnəbi müəlliflərdən isə Regine Hunziker-Rodewald-ın (Palais Universiteti, Fransa) "The Iron age female figures from Tranjordan" adlı məqaləsi oxuculara təqdim edilmişdir




## SUBSEQUENT ISSUE OF "ARCHEOLOGY OF AZERBAIJAN" JOURNAL PUBLISHED

The new issue of the "Azerbaijan Archeology" journal, has been published by Khazar University Press (Volume: 22, Issue 1, 2019). Along with the articles of Azerbaijani archeologists, the journal also publishes articles of foreign archeologists.

In this issue you will find following articles written by the local archeologists: Yaqub Mammadov, "Azikh man and his place in Homo system"; Zeynab Guliyeva, "Technical and decorative features of Eneolitic period ceramics of Nakhchivan"; Parviz Gasimov, "Menteshtepe First Bronze Mound: Chronological Paradox"; Orkhan Zamanov, "Azerbaijan Archeology Science within the framework of the exchange of academic cultures and scientific knowledge with Europe in 1945-1990"; Shamil Najafov, "Socio-economic development and population settlement problem in the Bronze Age (ethno-archeological research on Ganja-Gazakh region monuments)"; Togrul Khalilov, "The dyeing technique of the vessels in the Bronze Age"; Irada Avsharova, "The traces of the "Sun" belief in the Bronze Age Grave Monuments of Azerbaijan". As for the articles written by foreign authors, following work by Regine Hunziker-Rodewald (Palais University, France) is included in the issue: "The Iron Age female figures from Tranjordan".


KHAZAR UNIVERSITY
OPERATORS,
FUNCTIONS, AND SYSTEMS
OF MATHEMATICAL PHYSIC
CONFERENCE
Khazar University
Baku / Azerbaijan
10-14 June
2019
10:00






KAHTATA





# XƏZƏR UNİVERSİTETİNDƏ 2-Cİ "RİYAZİ FİZİKANIN OPERATORLARI, FUNKSİYALARI VƏ SİSTEMLƏRİ" ADLI BEYNƏLXALQ KONFRANS KEÇİRİLDİ

# 2ND INTERNATIONAL CONFERENCE ON "OPERATORS, FUNCTIONS AND SYSTEMS OF MATHEMATICAL PHYSICS" HELD AT KHAZAR UNIVERSITY

İyunun 10-14-də Xəzər Universitetində Riyaziyyat departamentinin təşkilatçılığı ilə riyazi fizikanın müasir problemlərinə həsr olunmuş 2-ci "Riyazi fizikanın operatorları, funksiyaları və sistemləri" (RFOFS) adlı beynəlxalq konfrans keçirildi. Konfransın başlıca məqsədi riyazi fizikanın ən yeni nailiyyətlərini və inkişaf istiqamətlərini, həmçinin onun metodlarını müzakirə etmək idi.

Qeyd edək ki, 1-ci RFOFS konfransı 2018-ci il mayın 21-24-də professor Hamlet İsaxanlının 70 illik yubileyi münasibətilə keçirilmiş və bundan sonra hər il keçirilməsi qərara alınmışdır.

Konfransda AMEA institutlarının, ölkə universitet-lərinin alim və mütəxəssisləri və dünyanın 25 ölkəsindən – Türkiyə, Rusiya, Gürcüs-tan, Ukrayna, ABŞ, Meksika, Kanada, Böyük Brita-niya, Almaniya, Fransa, İtaliya, İspaniya, Rumıniya, Sloveniya, Polşa, İsveç, İsveçrə, İsrail, Səudiyyə Ərəbistanı Krallığı, Avstriya, Norveç, Koreya, Şimali Koreya, Çin və Yaponiyadan gəlmiş 60-dan artıq tanınmış riyaziyyatçılar iştirak edirdilər.

*(Ardı səh.30-da)*

On June 10-14, the 2[nd] International Conference on "Operators, Functions, and Systems of Mathematical Physics" (OFSMP-2019) was held at Khazar University, organized by the Department of Mathematics, being dedicated to the modern issues of mathematical physics. The main purpose of the Conference was to discuss the latest achievements and progress of mathematical physics and its methods.

It should be noted that the 1st OFSMP Conference was held on May 21-24, 2018 on the occasion of the 70th anniversary of Professor Hamlet Isakhanli and then it was decided to hold it annually.

The Conference was attended by the scientists and specialists from ANAS institutes and local Universities and also over 60 mathematicians from 25 countries of the world, particularly - Turkey, Russia, Georgia, Ukraine, USA, Mexico, Canada, Great Britain, Germany, France, Italy, Spain, Romania, Slovenia, Poland, Sweden, Switzerland, Israel, Saudi Arabia, Austria, Norway, Korea, North Korea, China and Japan.

***(To be continued page 31)***











**Konfransın açılış mərasimi universitetin Mərmər salonunda oldu. Riyaziyyat departamentinin müdiri Əli Hüseynlinin giriş nitqindən sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova çıxış edərək, iştirakçıları salamladılar və konfransın işinə uğurlar arzuladılar.**

**Açılış mərasimindən sonra konfrans beş gün ərzində üç müxtəlif seksiyada, hər seksiyada beş qırx dəqiqəlik çıxışlarla davam etdi. Əsasən, riyazi fizikanın bu sahələrindəki elmi nailiyyətlər müzakirə olundu: Sim nəzəriyyəsi; Kvant sahə nəzəriyyəsi; Klassik və kvant inteqrallanan sistemlər; Təsvirlər nəzəriyyəsi; Kompleks analiz və differensial həndəsənin müasir riyazi fizikada metodları; Spektarl nəzəriyyə, səpilmə nəzəriyyəsi, tərs spektral məsələlər, ortoqonal polinomlar; Riyazi fizikanın xüsusi törəməli tənliklərinin analizi; Soliton nəzəriyyəsi.**

***(Ardı səh.32-də)***










The opening ceremony of the Conference took place at the Marble Hall of the University. After the opening speech of Dr. Ali Huseynli, the Head of the Mathematics Department at Khazar University, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Associate Professor, Irada Khalilova, the Rector of the University, in their opening statements welcomed the participants and wished success to the Conference's work

After the opening ceremony, the Conference continued its work for five days in three different sections and each section had five reports delivered with 45 minutes duration. Primarily, the following scientific achievements in mathematical physics were discussed: String and Quantum field theory; Classical and quantum integrable models; Representation Theory; Methods of Complex Analysis and differential Geometry in modern Mathematical Physics; Spectral Theory, Scattering Theory, Inverse problems, Orthogonal Polynomials; Analysis of Partial Differential Equations of Mathematical Physics; Soliton theory.

*(To be continued page 32)*
















Konfransda təqribən 70 çıxış dinlənildi. Qeyd edək ki, istər xarici iştirakçıların sayı, istər iştirakçıların mənsub olduğu coğrafiyanın genişliyi, istərsə də konfransda iştirak edən alimlərin nüfuzu baxımından bu konfrans bir il öncə keçirilmiş 1-ci RFOFS beynəlxalq konfransı ilə müqaisədə daha yüksək göstəricilərə malik idi. Heç təsadüfi deyil ki, Beynəlxalq Riyazi Fizika Cəmiyyəti məhz belə yüksək göstəriciləri nəzərə alaraq, bu konfransı öz klassifikasiyasına görə B kateqoriyalı konfrans kimi tanıdı və onun rəsmi dəstəkçisi oldu.

Xüsusi qeyd edək ki, Azərbaycanda riyaziyyat sahəsində keçirilmiş konfranslar haqqında olan informasiyalar onu deməyə əsas verir ki, istər birinci, istərsə də ikinci RFOFS beynəlxalq konfransları miqyasına görə Azərbaycanın son 40-50 illik tarixində riyaziyyat sahəsində təşkil olunmuş ən böyük iki konfransdır.

Hal-hazırda konfransın tezislər kitabı çapa hazırlanır.

About 70 speeches were heard at the Conference. It is worth mentioning that in terms of the number of foreign participants or the wide geography of the participants, as well as the prominence of scientists participating in the Conference, this Conference had higher rates compared to the 1st OFSMP Conference held a year ago. Taking into account such high indicators, it is no coincidence that the International Association of Mathematical Physics has recognized this conference as B-category Conference and became the official supporter of this Conference.

It should be noted most emphatically, the history of Conferences held in Azerbaijan in the field of mathematics and the information about them give us the reason to say that either or both the first and second OFSMP Conferences are the two most largest Conferences organized in the field of mathematics in the history of Azerbaijan in the last 40-50 years.

Currently, the abstracts of the Conference are being prepared.


















DUALITIES FROM CYCLOTOMIC



## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



# XALQ YAZIÇISI İLYAS ƏFƏNDİYEVƏ HƏSR OLUNMUŞ ELMİ SESSİYA

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Xalq yazıçısı İlyas Əfəndiyevin ədəbi irsi və müasirlik" mövzusunda elmi sessiya keçirilib.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İlyas Əfəndiyevin 105 illik yubileyinə həsr olunan sessiya çərçivəsində yazıçının həyat və yaradıcılığını əks etdirən sərgi də təşkil edilib.

Tədbiri AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli açaraq,rəhbərlik etdiyi müəssisədə mütəmadi olaraq görkəmli yazıçıların, alimlərin yubileylərinin qeyd olunduğunu, bu cür sessiyaların bir çox tədqiqatlar üçün zəmin hazırladığını, yeni ideyalar üzə çıxardığını söyləyib. İ.Əfəndiyevin Azərbaycan ədəbiyyatındakı mövqeyindən, onun zəngin bədii yaradıcılığından danışan İ.Həbibbəyli yazıçının fəaliyyətinin çoxcəhətli olduğunu, publisistikası, lirik nəsri və dramaturgiyası ilə ədəbi tariximizdə böyük iz qoyduğunu bildirib. Qeyd edib ki, görkəmli yazıçının "Sən həmişə mənimləsən", "Mahnı dağlarda qaldı", "Unuda bilmirəm" pyesləri ilə ölkəmizdə lirik-psixoloji dramın əsası qoyulub və Azərbaycan dramaturgiyasında yeni mərhələ başlayıb.

Akademik ölməz sənət nümunələri yaradan yazıçının dramlarının oxucular tərəfindən rəğbətlə qarşılandığını və dəfələrlə tamaşaya qoyulduğunu, nəticədə İlyas Əfəndiyev teatr məktəbinin yarandığını diqqətə çatdırıb. Bundan əlavə, Xalq yazıçısının "Söyüdlü arx", "Körpüsalanlar" romanları ilə bir çox ənənəvi stereotipləri də sındırdığını vurğulayıb. İ.Həbibbəyli ədibin, həmçinin yüksək keyfiyyətlərə malik insan olduğunu, hər zaman istedadlı gənclərə dəstək verdiyini söyləyib.

O, bu gün rəhbərlik etdiyi müəssisədə İ.Əfəndiyevin yaradıcılığının tədqiq olunduğunu, yazıçıya həsr edilən monoqrafiyaların, əsərlərin çap edildiyini bildirib.

Sonra İlyas Əfəndiyevin oğlu, Xalq yazıçısı Elçin Əfəndiyev çıxış edərək, Ədəbiyyat İnstitutunun onun üçün doğma olduğunu və gəncliyində kiçik elmi işçi kimi burada işlədiyini xatırladıb. Bildirib ki, tarixi ənənələri davam etdirən institut bu gün ədəbiyyatın müasir problemləri ilə geniş məşğul olur, ədəbi tənqidlər, monoqrafiyalar hazırlayır. O, atasının yaradıcılığına verilən qiymətə görə tədbirin təşkilatçılarına və iştirakçılarına öz minnətdarlığını bildirib.

Daha sonra Elçin Əfəndiyevə Ədəbiyyat İnstitutunun nəşrləri hədiyyə olunub.

Sessiyada, həmçinin filologiya elmləri doktoru, professor Şirindil Alışanlının "XX əsr tarixi prosesində İlyas Əfəndiyevin yeri", sənətşünaslıq elmləri doktoru, professor Məryəm Əlizadənin "İlyas Əfəndiyevin teatrı", filologiya elmləri doktoru, professor Nizami Tağısoyun "İlyas Əfəndiyevin nəsri" və filologiya üzrə fəlsəfə doktoru Qurban Bayramovun "İlyas Əfəndiyevin yaradıcılığı" mövzusunda məruzəsi dinlənilib.

# “AZƏRBAYCAN” QƏZETİ: “BÖYÜK PUBLİSİSTİKA ƏNƏNƏLƏRİNİN MÜASİR TƏQDİMATI”




Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Azərbaycan” qəzetinin 100 illiyinə həsr olunmuş “Böyük publisistika ənənələrinin müasir təqdimatı” mövzusunda elmi sessiya keçirilib.

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açıb. Təqdimatı keçirilən “100 yaşlı “Azərbaycan” kitabında “Azərbaycan” qəzetinin keçdiyi inkişaf yolundan, uğurlarından, mübarizələrindən, hətta problemlərindən də bəhs edildiyini vurğulayan akademik İsa Həbibbəyli “Azərbaycan” qəzetini bir əsrlik Azərbaycan mətbuatının etibarlı mənbəyi, zəngin qaynağı kimi xarakterizə edib. Xüsusi olaraq vurğulayıb ki, “Azərbaycan” qəzeti rəsmi dövlət orqanı olaraq həm bütün xalqı, həm də müxtəlif təbəqələrin ziyalılarını öz ətrafına toplaya bilib. Mətbuat tarixində məktəb yaratmış bu qəzetin Ceyhun Hacıbəyli, Xəlil İbrahim kimi baş redaktorlarının əməyini yüksək qiymətləndirib. Bu gün həmin ənənələri millət vəkili, professional jurnalist Bəxtiyar Sadıqovun layiqincə davam etdirdiyini təqdirəlayiq hal kimi dəyərləndirib.

“Azərbaycan” qəzetinin ümummilli lider Heydər Əliyevin də sevdiyi, inandığı, etibar etdiyi mətbu orqan olduğunu, həmçinin ölkə başçısı İlham Əliyevin də qəzetin yubileyinin keçirilməsi üçün geniş imkanlar yaratdığını diqqətə çatdıran akademik İsa Həbibbəyli nəşr olunmuş kitabın elmi-tarixi əhəmiyyətini xüsusi vurğulayıb.

Sonra AMEA Humanitar elmlər bölməsinin akademik-katibi, akademik Teymur Kərimli “Azərbaycanda rəsmi dövlət mətbuat nümunəsi: ənənə və müasirlik” mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində “Azərbaycan” qəzetini nəşrə başladığı dövrdən istiqlal yolunda bir ordu qədər xidmət göstərən mətbuat orqanı olaraq təqdir edib. Eyni zamanda, məruzədə qəzetin keçdiyi inkişaf yolu, redaktorları və digər əməkdaşları barədə ətraflı məlumat verilib.

Millət vəkili, akademik Nizami Cəfərov qəzetin digər üstünlükləri ilə yanaşı Azərbaycan ədəbi dilinin normalarının qorunması işində xüsusi seçildiyini də nəzərə çatdırıb.

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev çıxış edərək qəzetin səhifələrində Ədəbiyyat İnstitutunun əməkdaşlarına da yer verdiyi üçün təşəkkürünü bildirib.

Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor Bədirxan Əhmədov çıxışında qəzetin tarixinə nəzər salaraq qeyd edib ki, “Əkinçi” qəzeti ilk qəzet nümunəsi olduğu kimi, “Azərbaycan” qəzeti də ilk rəsmi qəzet olmuşdur. Əvvəl Gəncədə, sonra Bakıda nəşr olunan qəzetin Cümhuriyyətin süqutundan sonra həbs taleyi yaşamağa məhkum edildiyini bildirib.

Filologiya elmləri doktoru Elçin Mehrəliyev “Azərbaycan”ın bayramı Azərbaycan ədəbiyyatında bayramdır” adlı məruzəsində təqdimatı keçirilən kitab haqqında hərtərəfli məlumat verərək qəzetin müxtəlif tarixi mərhələlərdə sınaqlardan çıxdığını mübarizlik nümunəsi kimi örnək göstərib.

“Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov çıxışında ədəbiyyatşünas alimlərə, elmi ictimaiyyətin nümayəndələrinə minnətdarlığını bildirib. Həmçinin qeyd edib ki, “Azərbaycan - 90” kitabında yalnız Cümhuriyyət dövrü əhatə olunmuşdursa, bu kitabda qəzetin bütün fəaliyyətinə işıq salınıb.

Sonda Ədəbiyyat İnstitutunun direktoru İsa Həbibbəyli Nizami Gəncəvinin “Leyli və Məcnun” əsərinin AMEA tərəfindən çap olunmuş nüsxəsini “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqova təqdim edib

# TED.AZ PROFESSOR HAMLET İSAXANLIDAN MÜSAHİBƏ ALMIŞDIR

# TED.AZ INTERVIEWED PROFESSOR HAMLET ISAKHANLI

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı 2019-cu il iyunun 14-dəTED.az -ın "e-PERSON" rubrikasının növbəti qonağı olaraq, sualları cavablandırmışdır. Professor İKT-nin təhsil sahəsinə inteqrasiyası, distant (onlayn) təhsil və sosial şəbəkə fəaliyyəti haqqında fikirlərini bölüşüb.

Müsahibəni bu linkdə oxumaq olar:

*http://ted.az/az/view/news/2078/e-hamletisaxanli-heyat-yoldashim-facebookda-bash-veren-butun-hadiseler-haqqinda-mene-melumat-verir-*

On June 14, 2019 Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, being the subsequent guest of "e-PERSON" section at TED.az., responded to the questions. Professor shared his thoughts on ICT integration to education field, distance (online) learning and social networking.

You can read the interview here:

*http://ted.az/az/view/news/2078/e-hamletisaxanli-heyat-yoldashim-facebookda-bash-veren-butun-hadiseler-haqqinda-mene-melumat-verir-*

# COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN MÜDİRİNİN MƏQALƏSİ ÇAP OLUNUB

# ARTICLE BY DIRECTOR OF GEOGRAPHY AND ENVIRONMENT DEPARTMENT PUBLISHED

Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun həmmüəllifi olduğu "Sumqayıt ətrafında davamlı üzvi çirkləndicilərlə çirklənmiş torpaqların bərpası" adlı məqalə "Environmental Monitoring və Assessment" jurnalında dərc edilmişdir. Bu məqalədə davamlı üzvi çirkləndicilərlə çirkləndirilən torpaqlarda aparılan bioremediasiya işlərinin torpaqların təmizlənməsinə və çirklənmə səviyyəsinə təsiri təhlil olunur və göstərilir ki, torpaq bərpa işləri çirklənməni əhəmiyyətli şəkildə azaldır.

Qeyd etmək lazımdır ki, adı çəkilən jurnal çox yüksək impakt faktoru olan jurnaldır.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*https://link.springer.com/article/10.1007/s10661-019-7560-7*

On June 26, "Environmental Monitoring and Assessment" Journal has published article by co-author Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, entitled "Remediation of Soil Contaminated with Persistent Organic Pollutants in Sumgait, Azerbaijan". This article analyzes the impact of bioremediation actions at soil cleaning and its level of pollution on contaminated lands with persistent organic pollutants, and shows that soil remediation works significantly reduce pollution.

It should be noted that this Journal has a very high impact factor.

The article can be read through the following link:

*https://link.springer.com/article/10.1007/s10661-019-7560-7*

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN TƏLƏBƏLƏRİ "İƏT MODELİ-2019" TƏDBİRİNDƏ

# STUDENTS OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT AT "OIC MODEL-2019" EVENT




İyunun 15-də İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun Bakıda yerləşən Avrasiya Regional Mərkəzinin təşkilatçılığı və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tərəfdaşlığı ilə "İƏT Modeli –Xarici işlər nazirlərinin konfransı" beynəlxalq tədbirinin bağlanış və qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

2019-cu ilin aprelindən davam edən "İƏT Modeli – Beynəlxalq Münasibətlər Akademiyası 2019" proqramının yekun mərhələsi olan simulyasiya konfransı 100-dən çox gəncin, o cümlədən 20 beynəlxalq universitetin tələbələrinin iştirakı ilə keçirildi. Konfransda 57 islam ölkəsinin nümayəndələri iştirak edirdilər.

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin regionşünaslıq, politologiya və beynəlxalq münasibətlər ixtisasının 20-yə yaxın bakalavr tələbəsi də bu tədbirdə iştirak edirdi. Onların hər biri müxtəlif islam ölkələrinin təmsilçisi kimi hazırladıqları məruzələrdə mövcud problemlərin həllinə aid öz təklifini irəli sürdü. Departamentin beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan 2-ci kurs tələbəsi John Ayomide Arogunun "ABŞ-ın Yaxın Şərq siyasəti və ABŞ-İran müharibəsinin təhlükələri" adlı məru-zəsi tədbirin "ən yaxşı" məruzəsi seçilərək, xüsusi mükafatlandırıldı.

Konfrans iki hissədən ibarət idi. Birinci hissədə İran və ABŞ, ikinci hissədə isə Azərbaycan və Ermənistan dövlətləri arasındakı konfliktlər müzakirə edildi. Hər hissənin sonunda sədr tərəfindən verilən qətnamə layihəsində iştirakçı ölkələr tərəfindən dəyişikliklər edilərək, bu dəyişikliklərə bütün ölkələrin nümayəndələrinin səs verməsi ilə qərar qəbul edildi.

Bağlanış mərasimində İƏT-ə üzv ölkələrin Azərbaycanda təmsil olunan səfirləri, diplomatik nümayəndəliklərin, dövlət qurumlarının və ali təhsil müəssisələrinin nümayəndələri, ictimai xadimlər və həmçinin, builki proqramın məzunları olan gənclər iştirak edirdilər. Sonda hər bir tələbə iştirakına və məruzə ilə çıxışına görə sertifikatla mükafatlandırıldı.

On June 15, the closing ceremony of the "OIC Model - Conference of Foreign Affairs Ministers" international event and its awarding ceremony was held, being jointly organized by the Eurasian Regional Center of Islamic Cooperation (OIC) Youth Forum, with its office in Baku, and the Ministry of Youth and Sports of the Republic of Azerbaijan.

Operating since April 2019, simulation Conference, which is the final stage of the "OIC Model - Academy of International Relations 2019", was held with the participation of more than 100 young people, including students from 20 international universities. Representatives of 57 Islamic countries attended the Conference.

Nearly 20 undergraduate students from Khazar University's Political Science and Philosophy Department, majoring in regional studies, political science and international relations, attended the event. Each of them participated as a representative of various Islamic countries, made presentations and presented their findings. A report made by John Ayomide Arogu, 2nd year student majoring in international relations at the above-mentioned Department, entitled "Near East Policy of the US and the risk of the US-Iran war" was chosen as the best report and awarded a special prize.

The Conference consisted of two parts. The first part was dedicated to discussions on the conflicts between Iran and the US, and the second part dealt with the conflicts between Azerbaijan and Armenia. At the end of each section, changes were made by the participating countries to the draft resolution issued by the Chairman, and the decisions were made by representatives of all countries giving their votes for or against those amendments.

The closing ceremony was attended by the Ambassadors representing OIC member countries in Azerbaijan, representatives of diplomatic missions, government agencies and higher education institutions, public figures, as well as young people, graduates of this year's program. At the end, each student was rewarded with certificates for participation and reporting.




# "TƏLƏBƏLƏR ARASINDA İNTELLEKT OLİMPİADASI"NIN QALİBİ XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİDİR

# WINNER OF "INTELLECTUAL OLYMPIAD AMONG STUDENTS" IS KHAZAR UNIVERSITY'S STUDENT

İyunun 17-də Nizami Kino Mərkəzində LEAD Education Təhsil və İnnovasiya Mərkəzi, YAP Gənclər Birliyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilati dəstəyi və "Bank of Baku"nun baş sponsorluğu ilə "Tələbələr arasında intellekt olimpiadası" layihəsinin mükafatlandırma mərasimi keçirilib.

Tədbirdə çıxış edən layihənin icraçı direktoru Xəyal İbrahimzadə bildirib ki, ümumilikdə layihəyə 23 universitetdən 10 254 nəfər qatılıb, onlardan 450 nəfəri finala vəsiqə qazanıb.

Layihədə birinci yeri Xəzər Universiteti Təbiət və mühəndislik elmləri fakültəsinin I kurs tələbəsi Tamerlan Abdullayev (Kompüter mühəndisliyi ixtisası) tutub. Gənclər və İdman nazirinin müavini İntiqam Babayev qalibə mükafatları təqdim edib. Tamerlan Abdullayev "Baku Elektroniks"dən Notebook, "İrşad Telekom"dan Honor 10 lite smartfonu, "Şərq-Qərb" nəşriyyat evindən kitablar, Nizami Kino Mərkəzindən kinoya bilet və LEAD Educationdan Platinium kuponunu qazanıb. "Xəzər"in Ağdaş rayonundan olan tələbəsinə rayon icra hakimiyyəti tərəfindən xüsusi hədiyyə də təqdim olunub.

Tədbirdən Real TV-nin internet səhifəsində də xəbər yayımlanıb:

***https://www.tvreal.az/news/az/19764/telebeler-arasinda-intellekt-olimpiadasinin-qalibi-melum-olub***

On June 17, Nizami Cinema Center hosted the Awarding Ceremony of the "Intellectual Olympiad among students" Project co-organized by LEAD Education and Innovation Center, YAP Youth Union and Azerbaijan Student Youth Organizations' Union and sponsored by Bank of Baku.

Khayal Ibrahimzade, Executive Director of the Project, delivering speech at the event indicated that 10 254 people from 23 universities participated in the Project, and 450 of them got into the final.

The first place in the project was won by Tamerlan Abdullayev, a 1st year student of the School of Sciences and Engineering at Khazar University (majoring in Computer Engineering). Deputy Minister of Youth and Sports Intigam Babayev presented awards to the winners. Tamerlan Abdullayev was awarded with a Notebook from "Baku Electronics", Honor 10 lite smartphone from "Irshad Telecom", books from "Şərq-Qərb" Publishing House, cinema tickets from Nizami Cinema Center and Platinum coupon from LEAD Education. A special gift from the Executive Power of the Region was presented to the Khazar University's student hailed from Agdash District.

The event was also reported on Real TV's website:

***https://www.tvreal.az/news/az/19764/telebeler-arasinda-intellekt-olimpiadasinin-qalibi-melum-olub***





# “ŞƏHƏR İNCƏSƏNƏTİ. AZƏRBAYCAN” LAYİHƏSİ İLƏ BAĞLI TƏDBİR

# EVENT ON “CITY ART. AZERBAIJAN” PROJECT

İyunun 18-də Xəzər Universitetinin tərəfdaşı olduğu “Şəhər incəsənəti. Azərbaycan” layihəsi ilə bağlı tədbir. Tədbirdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, AMEA-nın İctimai elmlər bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dəstək Şurasının katibi və üzvü Nərgiz Xələf, layihəyə müsabiqə yolu ilə seçilənlər iştirak edirdilər.

Tədbiri layihə haqqında geniş təqdimatla AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun və Xəzər Universiteti Tarix və arxeologiya departamentinin əməkdaşı, layihənin ideya müəllifi Orxan Zamanov açaraq, vətənpərvərlik ideyasının şəhər incəsənətində tətbiqi haqqında danışdı.

Sonra tədbirdə qonaqların çıxışları oldu və yekunda mühəndis-ixtiraçı İlqar Həsənəlizadə “Silahlar və incəsənət” adlı əyani seminar-treninq keçirdi.

On June 18,the Opening Ceremony of “City Art. Azerbaijan” Project partnered with Khazar University, was held. The event was attended by following participants, selected on the interview basis: Alovsat Amirbeyli, Director for Public Relations and Media at Khazar University, Roza Arazova, Head of Department of History and Archeology at Khazar University, Academician Nargiz Akhundova, Acting Member of ANAS, Academician-Secretary of Social Sciences Department, Nargiz Khalaf, Secretary and Member of the Council on State Support to NGOs under the President of the Republic of Azerbaijan.

The event was opened by Orkhan Zamanov, the staff member of the Institute of Archeology and Ethnography of ANAS and the Department of History and Archeology at Khazar University and the author of the project, who delivered a comprehensive talk about the application of the idea of patriotism in the City Art. Following that, official guests made speeches at the event, and finally, engineer-inventor Ilgar Hasanalizade gave the participants a training seminar called "Weapons and Art".

At the end a memorial photo was taken with the participants.








# POTENSİAL MƏKTƏB DİREKTORLARI KURSUNUN NÖVBƏTİ BURAXILIŞI

İyunun 19-da Xezər Universitetinin “Mərmər” salonunda universitetin “Potensial məktəb direktorları” kursunun 9-cu buraxılışına hesr olunmuş tenteneli merasim keçirildi. Merasimde universitetin rehberliyi, emekdaşları, kursun mezunları ve qonaqlar iştirak edirdiler. Xezer Universiteti himninin ifası ile başlanan merasimde iştirakçılara universitetin Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi ve incesenet departamentinin müdiri, emekdar müellim, pianoçu dosent Zülfiyye Sadıqova) Azerbaycan ve dünya bestekarlarının eserlerinden ibaret konsert teqdim olundu.

Xezer Universitetinin tesisçisi, Direktorlar ve Qeyyumlar Şurasının sedri professor Hamlet İsaxanlı geniş nitq söyleyerek, müasir dövrde qloballaşan dünyada tehsilin, o cümleden, Azerbaycan tehsilinin qarşısında duran mühüm vezifelerden, bu vezifeleri uğurla yerine yetirmek üçün mezunların üç ay erzinde kursda elde etdikleri idareetme bilikeri ve tecrübesinin ehemiyyetinden danışdı, tövsiyelerini verdi ve onlara uğurlu karyera arzu etdi.

*(Ardı səh.42-də)*








# SUBSEQUENT GRADUATION OF CLASS OF POTENTIAL SCHOOL PRINCIPALS COURSE

On June 19, a Solemn Ceremony dedicated to the 9th graduating class of the "Potential School Principals" Course was held at the Marble Hall of Khazar University. The ceremony was attended by the University Leadership, staff, course graduates and guests. At the ceremony, which started with the performance of Khazar University's hymn, participants were presented a concert of the University's Chamber Orchestra (the Artistic Director – Associate Professor Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, honored teacher, pianist), performing works by Azerbaijani and world composers.

Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivering an extensive speech, highlighted the importance of education in the globalizing world of modern times, including the important tasks, faced by Azerbaijan's education system, the significance of the management knowledge and experience gained by the graduates during the three months course in successfully performing these tasks. Furthermore, he expanded on with recommendations and wished them a successful career.

*(To be continued page 42)*







Sonra məzunlara "Peşəkar İnkişaf Sertifikatı"nın təqdim olunmasına başlanıldı. Sertifikatları professor Hamlet İsaxanlı, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədova, İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva və kursu tədris edən müəllimlər təqdim etdilər. Xatirə şəkilləri çəkildi.

Məzunlar adından İlahəxanım Hacıyeva çıxış edərək, kursun və tədrisin yüksək səviyyədə təşkilinə görə universitet rəhbərliyinə, kursun təşkilatçılarına və müəllimlərə minnətdarlıqlarını, qazandıqları idarəetmə bacarıq və vərdişlərinin karyeralarında önəmli rol oynayacağını bildirdi. Kursun keçmiş məzunu –232 saylı məktəbin direktoru Məhluqə Əzizova kursda əldə etdiyi biliklərin praktik işində ona böyük yardım göstərdiyindən danışdı.

Kursun məşğələlərindən çəkilmiş fotolardan ibarət slayd-şou nümayiş etdirildi. Məzunluq mərasimi çay süfrəsi ətrafında davam etdi.

Qeyd edək ki, "Potensial məktəb direktorları" kursu 2014-cü ildən fəaliyyətə başlayıb, 650 nəfərdən çox məzuna sertifikat vermişdir, onlardan 50 nəfərdən çoxu direktor, direktor müavini təyin olunmuşdur.

Then the graduates of the course were presented with the "Professional Development Certificate". The certificates were awarded by Professor Hamlet Isakhanli, Associate Professor Elza Samedova, Dean of the School of Humanities, Education and Social Sciences, Raziya Isayeva, Director of the Development Center and teachers of the course. Memorable photos were taken.

Delivering speech on behalf of the graduates, Ilahakhanim Hajiyeva conveyed her gratitude to University Leadership, course facilitators and teachers for organization of the course and teaching in a high-level, and indicated that management skills and career habits gained during the course will play an important role in their further careers. Former graduate of the course Mahsuma Azizova, Director of the School #232, said that the experience she obtained from the course, have greatly contributed to her practical work.

İyunun 25-də Xəzər Universiteti Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalovun elmi rəhbərliyi altında departamentin magistr tələbələri –Amin Lalani "Pakistanın Ahdi yatağının qaz kondensat rezervuarının işlənmə planının və iqtisadi analizinin hal tənliyi modelləşdirilməsi" mövzusunda və Vüqar Kazımov "Mürəkkəb şəraitlərdə istismar olunan yataqlarda quyu məhsuldarlığının artırılması məsələlərinin tədqiqi (Buzovna-Maştağa yatağının misalında)" mövzusunda magistr işlərini Xəzər Universitetinin Tezis Komitəsinin müdafiə şurasında müvəffəqiyyətlə müdafiə etdilər. Tezis Komitəsinin sədri Dr. Araz Əsədov və dosent Qəşəm Zeynalov, Dr. Əli Hüseynli, "Ümid Babək Operating Company" şirkətinin Azərbaycan filialının İşlənmə mühəndisi Tahir Məmmədov və SOCAR-ın "28 May" Neftçıxarma İdarəsinin Platforma rəisinin müavini Ceyhun Əlipənahov isə üzvləri idilər.

Qeyd edək ki, mayın 27-də dosent Qəşəm Zeynalovun elmi rəhbərliyi altında Neft mühəndisliyi departamentinin daha 2 magistr tələbəsi – Murad Əsgərov "Neft və qaz yataqlarında hasilatın optimallaşdırılmasında quyu stimullandırılması metodlarının rolu" mövzusunda və Aws Mohammed Ali Alkhateeb "İraqın tükənməkdə olan neft yatağında neft verməsinin artırılmasının müqayisəli tədqiqi: Eclipse proqram təminatını istifadə etməklə rejimlərin modelləşdirilməsi" mövzusunda magistr dissertasiya işlərini Xəzər Universitetinin Tezis Komitəsinin müdafiə şurasında müvəffəqiyyətlə müdafiə etmişlər.

On June 25, Under the scientific supervision of Associate Professor Gasham Zeynalov, Head of the Department of Oil Engineering at Khazar University, the master students of the Department - Amin Lalani, "Equation of state modeling for the development plan and economic analysis of the gas condensate reservoir of Pakistan's Ahdi field"; and Vugar Kazimov "Research on the issues of increasing the well productivity on the exploited fields under severe conditions (case of Buzovna-Mashtaga field)", successfully defended theirs dissertations before the Defense Council of Thesis Committee at Khazar University. The Chairman of the Thesis Committee is Araz Asadov and Associate Professor Gasham Zeynalov, Dr. Ali Huseynli, Tahir Mammadov, Development Engineer of the Azerbaijani branch of "Umid Babak Operating Company", and Jeyhun Alipanahov, Deputy Chief of the Platform of the Oil Production Department "28 May" of SOCAR are the members of the Committee.

It is worth mentioning that on May 27, under the supervision of Associate Professor Gasham Zeynalov, another two Master students from Petroleum Engineering Department - Murad Asgarov, "The role of well stimulation methods in the optimization of production in oil and gas fields" and Aws Mohammed Ali Alkhateeb, "Comparative analysis of increasing oil extraction in Iraq's oil field in exhaustion process: Modeling of Regimes Using Eclipse Software" have efficiently defended their master dissertations before the Defense Council of Thesis Committee at Khazar University.

# "XƏZƏR"İN DEKANININ MƏQALƏSİ "AZƏRBAYCAN MƏKTƏBİ" JURNALINDA

# ARTICLE BY DEAN OF KHAZAR UNIVERSITY IN "AZERBAIJAN MEKTEBI" JOURNAL




Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı, dosent Elza Səmədlinin "Azərbaycanlı şagirdlərin PIRLS-2016 nəticələrinin təhlili" adlı məqaləsi "Azərbaycan məktəbi" jurnalının 2019-cu il birinci nömrəsində dərc olunub. "Qiymətləndirmə" bölməsində yer alan bu araşdırmada müəllif Azərbaycanın 2016-cı ildə yenidən PIRLS (*Məktəblilər mətni necə oxuyur və başa düşürlər*) beynəlxalq qiymətləndirmə imtahanlarında iştirak etməsi və Təhsil Nazirliyi tərəfindən müəllimlərin bu istiqamətdə ixtisasartırma kurslarına cəlb olunmasını təqdirəlayiq hal kimi səciyyələndirir.

"Azərbaycan məktəbi" jurnalının bu nömrəsi haqqında geniş məlumatı aşağıdakı linkdə oxumaq olar:

*https://mektebgushesi.az/2019/06/28/az%c9%99rbaycan-m%c9%99kt%c9%99bi-jurnali-beyn%c9%99lxalq-elmi-pedaqoji-n%c9%99sri%c9%99r-sirasinda-jurnalinin-2019-cu-ild%c9%99-ilk-sayi-capdan-cixib/*

An article by Elza Samedli, Dean of the School of Humanities, Education and Social Sciences at Khazar University, entitled "Analysis of Azerbaijani Students' PIRLS-2016 Results" was published in the first 2019 issue of the "Azerbaijan Mektebi" Journal. In this study, which is part of the "Evaluation" section, the author characterizes Azerbaijan's participation in PIRLS international assessment exams (study of reading and comprehension achievement in high school students) again in 2016 and the involvement of teachers by the Ministry of Education to pursue advanced training courses in this direction, as a very commendable outcome.

For more information about the current issue of the "Azerbaijan Mektebi" Journal, see the following link:

*https://mektebgushesi.az/2019/06/28/az%c9%99rbaycan-m%c9%99kt%c9%99bi-jurnali-beyn%c9%99lxalq-elmi-pedaqoji-n%c9%99sri%c9%99r-sirasinda-jurnalinin-2019-cu-ild%c9%99-ilk-sayi-capdan-cixib/*



# SUMQAYIT "DÜNYA" MƏKTƏBİNİN UĞUR QAZANMIŞ ŞAGİRDLƏRİ "XƏZƏR"DƏ

# OUTSTANDING STUDENTS OF SUMGAYIT "DUNYA" SCHOOL AT KHAZAR UNIVERSITY

İyunun 27-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Sumqayıt "Dünya" məktəbinin respublika fənn olimpiadalarında, beynəlxalq robotex yarışmasında və karate üzrə dünya çempionatında uğur qazanmış şagirdlərini qəbul etdi.

Sumqayıt "Dünya" məktəbini, eyni zamanda Xəzər Universitetini layiqincə təmsil etmiş şagirdlər professor Hamlet İsaxanlıya təqdim olundu: Murad Qənbərli (11-ci sinif) - Respublika fənn olimpiadasında Kimya fənni üzrə 3-cü yer; Fərhad Novruzov (9-cu sinif) - Respublika fənn olimpiadasında Riyaziyyat fənni üzrə 3-cü yer; Əziz Hüseynov (9-cu sinif) - Respublika fənn olimpiadasında İnformatika fənni üzrə 1-ci yer; Elməddin Səlimli (2-ci sinif) - Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən karate üzrə 10-cu Dünya çempionatında yaşıdları arasında öz çəki dərəcəsində 2 qat Dünya çempionu adına layiq görülüb; Çıraq Zeynalova (8-ci sinif) - Rumıniyanın paytaxtı Buxarest şəhərində Beynəlxalq robotex yarışmasında gümüş medal; Həsən Yekəyev (9-cu sinif) - Rumıniyanın paytaxtı Buxarest şəhərində Beynəlxalq robotex yarışmasında gümüş medal.

Professor Hamlet İsaxanlı şagirdlərlə səmimi söhbət apardı, arzu və probleləri ilə maraqlandı, onlara Xəzər Universitetinin təşəkkürnamələrini təqdim etdi.

On June 27, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees received students from Sumgayit "Dunya" School, distinguished in the Republican Subject Olympiads, International Robotics Contest and World Karate Championship.

Students, that worthily represented Sumgayit "Dunya" School, as well as Khazar University, were introduced to Professor Hamlet Isakhanli: Murad Ganbarli (11th grade) - 3rd place in Republican Subject Olympiad on Chemistry; Farhad Novruzov (9th grade) - 3rd place in the Republican Subject Olympiad on Mathematics; Aziz Huseynov (9th grade) - 1st place in the Republican Subject Olympiad on IT; Elmadinli Selimli (2nd grade) - was awarded the title of Twice World Champion in the 10th World Karate Championship held in Bucharest, Romania; Chirag Zeynalova (8th grade) - Silver medal at the International Robotics Competition in Bucharest, Romania; Hasan Yekayev (9th grade) - Silver medal at the International Robotics Competition in Bucharest, Romania.

Professor Hamlet Isakhanli had a sincere talk with the students, inquired about their wishes and problems, and presented them with the letters of gratitude from Khazar University.








DIPLOM


TƏŞƏKKÜRNAMƏ
DIPLOM


TƏŞƏKKÜRNAMƏ
DIPLOM



## TƏLƏBƏLƏRİN YEKUN İMTAHANI

İyunun 28-də Xəzər Universitetində dizayn ixtisası üzrə təhsil alan tələbələrin yekun imtahanı oldu. Tələbələrin müxtəlif səpkili əl işlərindən ibarət sərgiyə baxışda universitetin rəhbərliyi və əməkdaşları, valideynlər iştirak edirdilər.

Xəzər Universitetinin müəllimi rəssam Afaq Kərimova tələbələr və onların əl işləri haqqında məlumat verdikdən sonra sərgiyə baxış başlandı. Tələbələr yaradıçılıq işləri barədə məlumat verib, sualları cavablandırdılar. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı hər bir tələbənin əl işləri ilə tanış olaraq, tövsiyələrini bildirdi.

Sərgiyə baxışdan sonra tələbələrin yaradıcılıq işləri qiymətləndirildi.

## STUDENTS FINAL EXAM

On June 28, final exam of the students majoring in design at Khazar University, took place. The exhibition of students works, consisting of different styles of handicrafts, was attended by the University leadership and staff, and also parents.

After the artist Afag Karimova, Teacher at Khazar University, gave an information about the students and their handcrafts, the display of exhibition started. The students provided information on their creative work and answered the questions. Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, familiarized himself with the handiwork of each student and gave his recommendations.

After the exhibition, students' creative work was evaluated.



















# AVRASİYA BİLİK MƏRKƏZİ NÖVBƏTİ TƏLİM KURSU KEÇİRDİ





İyunun 21-29-da Xəzər Universitetində Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi "Davamlı inkişaf üçün təbii resursların istifadəsi" mövzusunda təlim kursu keçirdi.

Təlimə Avrasiya regionun təbii resurslarla zəngin ölkələri, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, Monqolustan, Ukrayna, Rusiya və Azərbaycandan 28 iştirakçı qatıldı. Təlimləri Layden Universitetitinin (Leiden University) dosenti Anar Əhmədov, Avrasiya Bilik Mərkəzinin direktoru İnqilab Əhmədov, Təbii Resursların İdarəedilməsi İnstitunun (NRGİ) eksperti David Manley, Xəzər Universitetin dekanı Ceyhun Məmmədov, Xəzər Universitetinin müəllimi Nicat Qarayev və Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Azər Mehtiyev apardı.

Təlimlərdə iştirakçılar praktiki tapşırıqlar yerinə yetirərək, vergi rejimi ilə bağlı danışıqların necə aparılmasını, eləcə də hasilat sənayesində əldə edilən gəlirlərin effektiv idarəedilməsi ilə bağlı tətbiqi biliklər əldə etdilər.

Təlimin sonunda İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin (SDC) regional direktor müavini Simone Haeberlinin iştirakı ilə iştirakçılar sertifikatlarla təltif olundular.



# EURASIA HUB CONDUCTED SUBSEQUENT TRAINING COURSE






On 21-29 of June, "Natural Resources for Sustainable Development" Training Course organized by the Eurasia Extractive Industries Knowledge Hub took place.

Twenty eight participants from resource rich countries, such as Kazakhstan, Kyrgyzstan, Tajikistan, Uzbekistan, Turkmenistan, Mongolia, Ukraine, Russia and Azerbaijan attended the training. Anar Ahmadov, Associate Professor at Leiden, Ingilab Ahmadov, University Director of Eurasia Knowledge Hub, David Manley, Expert on Natural Resources Governance Institute (NRGI), Jeyhun Mammadov, Dean of Khazar University, Nijat Garaev, Lecturer at Khazar University, and Azer Mehtiyev, Associate Professor at Azerbaijani State Economic University, were among the trainers of the Course.

During the practical work at the Course, participants worked in teams and gained applied knowledge on how to lead the tax negotiations and efficiently manage the revenues from resources in extractive industries. In the end of the course the participants were awarded certificates.

The Deputy Regional Director of the Swiss Cooperation Office for the South Caucasus Simone Haeberli participated in the certificate awarding ceremony.



# PAWER LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ REGİONAL KONFARNS

# REGIONAL CONFERENCE WITHIN PAWER PROJECT

İyunun 28-de Xezer Universitetinin emekdaşları Tbilisidə, Gürcüstanın İlia Dövlət Universitetində PAWER layihəsi çərçivəsində keçirilən regional konfransda və təlimdə iştirak etdilər.

L'Aquila Universitetinin (İtaliya) koordinasiya etdiyi PAWER (Regionlararası Mobilliyin ve Keçid Uyğunluğunun Yolunun Açılması, Keyfiyyət və Keçid Bərabərliyi) layihəsinin iştirakçılarından biri de Xezer Universitetidir. Layihə, kredit ayırma və qiymətləndirmə sistemini uyğunlaşdıraraq, AB ve tərəfdaş ölkələr arasında hərəkətliliyi təşviq etməyi və dəstəkləməyi hədəfləyir.

Konfransda Xezer Universiteti, Bakı Mühendislik Universiteti (Azərbaycan), Middlesex Universiteti (Böyük Britaniya), İlia Dövlət Universiteti, Şota Rustaveli adına Batumi Dövlət Universiteti və Akaki Tsereteli Dövlət Universiteti (Gürcüstan), Gürcüstan Milli Erasmus+ ofisinin nümayəndələri iştirak edirdilər. Tədbirdə Xezer Universitetini Humanitar, təhsil və sosial elmlər fakültəsinin müəllimi Ülker Bayramova və İnkişaf Mərkəzinin layihə meneceri Tural Hüseynli təmsil edirdilər.

Tərəfdaş universitetlərin nümayəndələri layihə çərçivəsində həyata keçirilmiş işlər və tələbə mübadiləsinin yerinə yetirilməsi üçün universitetlərarası sənədlərin hazırlanması, qazanılmış kreditlərin hesablanması və s. məsələlər haqqında məruzələr etdilər.

Konfrans iştirakçılarına, həmçinin, layihə tərəfdaşları olan universitetlərin qoşulması üçün Middlesex Universiteti nümayəndələrinin universitetlərarası tələbə mübadiləsi zamanı fənlərin seçilməsi və kreditlərin hesablanmasını həyata keçirmək üçün hazırladığı saytın demo təlimi keçildi.

Sonda təlim iştirakçılarına sertifikatlaq təqdim edildi.

On June 28,employees of Khazar University participated in the Regional Conference and Training within the framework of the PAWER project in Tbilisi, at the Ilia State University in Georgia.

One of the participants of the PAWER (Interregional mobility and ensuring relevance, quality and equity of access) project co-ordinated by L'Aquila University (Italy) is Khazar University. The project aims to promote and support mobility between the EU and partner countries by adapting the credit allocation and evaluation system.

The Conference was attended by the representatives of Khazar University, Baku Engineering University (Azerbaijan), Middlesex University (UK), Ilia State University, Batumi State University named after Shota Rustaveli and Akaki Tsereteli State University (Georgia), and representatives from Georgian National Erasmus + Office. Khazar University was represented by Ulker Bayramova, Teacher of the School of Humanities, Education and Social Sciences at Khazar University and Tural Huseynli, Project Manager at the Development Center.

Representatives of partner universities delivered reports on the works implemented within the framework of the project and preparation of inter-university documents for student exchange program fulfilment, calculation of acquired credits, etc.

Demo training of the website was held on the selection of subjects and the calculation of credits during student exchange, prepared by the Middlesex University representatives for the Conference participants, as well as for the accession of the project partner universities.

At the end of the training participants were given certificates.

## PROFESSOR HAMLET İSAXANLI MİLLİ MƏLUMATLANDIRMA PORTALININ TƏQDİMAT MƏRASİMİNDƏ

## PROFESSOR HAMLET ISAKHANLI AT THE PRESENTATION OF THE NATIONAL INFORMATION PORTAL




İyulun 2-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təşəbbüsü və BMT-nin İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyinin dəstəyi ilə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə Milli Məlumatlandırma Portalının təqdimat mərasimi keçirildi.

Təqdimat mərasiminə dəvət edilmiş Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbir zamanı Dayanıqlı İnkişaf Məqsədlari, xüsusi olaraq, keyfiyyətli təhsil (4-cü məqsəd), Xəzər Universitetində bu məqsədlər üzrə görülən işlər, həmçinin, yaradılmış portalın əhəmiyyəti haqqında danışdı.

On July 2, the presentation of the National Information Portal on Sustainable Development Goals (SDGs) was held, initiated by the State Statistical Committee of the Republic of Azerbaijan and with the support of the UNDP Azerbaijan Representative Office.

Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, who was invited to the presentation ceremony, delivered speech about Sustainable Development Goals, particularly quality education (4th goal), works done at Khazar University for this purpose, as well as the importance of the Portal.

## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ "NƏSİLLƏRİN DEBATI" PROQRAMINDA

## TEACHER OF PSYCHOLOGY DEPARTMENT IN "NESILLƏRIN DEBATI" DEBATES PROGRAM

İyulun 2-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə Azərbaycan Dövlət Televiziyasında yayımlanan "Nəsillərin debatı" proqramında psixoloq - ekspert kimi çıxış etdi.

Proqramın müzakirə mövzusu qadınların erkən ailə həyatı qurması, karyera qurmağın ailə həyatına təsirləri idi. Müzakirə zamanı auditoriyada əyləşən müxtəlif universitetlərin tələbələri də öz fikirlərini bildirdilər.

On July 2, Nilufar Alizade, instructor at the Department of Psychology, Khazar University, delivered talk as an expert-psychologist in the "Nəsillərin debatı" Debates Program of the State Television of Azerbaijan.

The program's discussion was focused on issues of starting a family by women early and the impact of career building on family life. During the discussion, the students from different universities also expressed their views.



# İQTİSADİYYAT VƏ MENECMENT DEPARTAMENTİNDƏ MAGİSTR MÜDAFİƏSİ

# MASTER'S THESIS DEFENSE IN ECONOMICS AND MANAGEMENT DEPARTMENT

İyulun 2-də Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin magistr tələbələri Nazilə Əliyeva, Cəmilə Fərman, Maryam Adli, Tamima Saleem və Amama Saleemin magistr tezislərinin müdafiəsi keçirildi.

Magistr tələbələr mövzularını müvəffəqiyyətlə müdafiə etdilər.

On July 2, graduate students at School of Economics and Management, Khazar University Nazila Aliyeva, Jamila Farman, Maryam Adli, Tamima Saleem and Amama Saleem, defended their master's theses.

Master students successfully defended their dissertations.











# İİR-NİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

İyulun 3-də İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin nümayəndələri Xəzər Universitetində oldular. Nümayəndə heyətinin tərkibinə nazirliyin Təqaüd və Tələbə işləri üzrə Direktoru Jafaf Bagheri, İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Media İşləri müdiri Ali Musavi və səfirliyin konsulluq bölməsinin rəhbəri Hosein Jalini daxil idi. Qonaqlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdülər. Görüşdə, həmçinin, Xəzər Universitetinin rektoru Dr. İradə Xəlilova, prorektorlar professor Məhəmməd Nuriyev və dosent İsaxan İsaxanlı, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bəhmən Amani, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev, Bioloji elmlər departamentinin dosenti Cavid Ocaqi, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Lamiyə Pənahova iştirak edirdilər.

Görüş zamanı tərəflər iki ölkə arasında akademik əlaqələrin möhkəmlənməsinin və Azərbaycan universitetləri tərəfindən verilən diplomların İran Təhsil Nazirliyi tərəfindən tanınmasının vacibliyini vurğuladılar. Xəzər Universiteti ilə tanış olduqdan sonra Jafaf Bagheri burada olmaqdan məmnunluq hissi duyduğunu və İrana qayıtdıqdan sonra universiteti öz ölkəsində təbliğ edəcəyini bildirdi. Onun fikrincə, bu, İrandan daha çox universitetin Xəzər Universiteti ilə əməkdaşlıq edəcəyinə və daha çox tələbənin təhsil üçün buraya gəlməyinə təkan verəcək.

Tərəflər, həmçinin, Xəzər Universiteti ilə İran universitetləri arasında akademik əlaqələrin gücləndirilməsi üçün ikili diplom proqramlarının yaradılması və professorların qarşılıqlı səfərləri məsələlərini müzakirə etdilər. İngilis dili və ədəbiyyatı departamentinin 2020-ci ilin martında təşkil edəcəyi beynəlxalq konfransda İran alimlərinin də iştirakı gözlənilir.

# MEETING WITH IRI REPRESENTATIVES

On July 3, 2019 representatives from Ministry of Foreign Affairs of the Islamic Republic of Iran visited Khazar University. Iranian Ministry of Foreign Affairs was represented by Jafaf Bagheri, Director of Scholarship and Student Affairs, Hosein Jalini, Head of Media Affairs of the Embassy of the Islamic Republic of Iran in Baku, and Ali Musavi, Head of Consular section of the Embassy. The delegation met with Professor Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees. Associate Professor Irada Khalilova, Rector of Khazar University, Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Associate Professor Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs, and Dr. Bahman Amani, Head of the English Language and Literature Department, Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department, Dr. Javid Ojaghi, Associate Professor of Life Sciences Department, Alovsat Amirbayli, Director for Public Relations and Media, and Lamiya Panahova, Coordinator of the International Affairs Office, also participated in the meeting.

During the meeting both sides emphasized the necessity of strengthening academic ties between two countries and recognition of Azerbaijani universities by Iranian Ministry of Education. After an introduction to Khazar University, Mr. Jafaf Bagheri expressed his pleasure to visit Khazar University and to promote it upon his visit back to Iran to encourage more universities in Iran cooperating with Khazar and more students from Iran coming to Khazar for studying.

The sides also discussed the establishment of double degree programs between Khazar University and Iranian universities and to activate the scheme of visiting scholars to further strengthen academic ties. Participation of Iranian scholars is expected in the International Conference to be organized by English Language and Literature Department of Khazar University in March, 2020.

# XƏZƏR HAVA KEYFİYYƏTİ LABORATORİYASININ TƏQDİMATI

# KHAZAR AIR QUALITY LAB PRESENTATION

Xəbər verdiyimiz kimi ("Xəzər Xəbər" jurnalı, iyun 2019), Xəzər Universitetində yaradılmış Xəzər Hava Keyfiyyəti Laboratoriyası 2019-cu il iyunun 1-də işə başlayaraq, Bakı şəhərində və şəhərətrafı ərazilərdə artıq iki monitorinq keçirmiş, nəticələri elan etmiş, universitetin Coğrafiya və ətraf mühit departamentində tələbələrin də iştirakı ilə nəticələrin analitik hesabatı hazırlanmışdır.

Qeyd edək ki, laboratoriya havanın keyfiyyət parametrlərini Avropa Hava Keyfiyyəti İndeksinə uyğun olaraq müəyyən etməyə imkan verən müasir avadanlıqlarla təchiz edilmişdir.

İyulun 3-də Xəzər Universitetinin Mərmər salonunda Xəzər Hava Keyfiyyəti Laboratoriyasının rəsmi təqdimat mərasimi keçirildi. Mərasimdə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, AMEA Həsən Əliyev adına Coğrafiya İnstitutunun, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Bakı şəhərinin Xəzər, Nəsimi, Xətai və Binəqədi rayonları icra hakimiyyətlərinin nümayəndələri və media mənsubları iştirak edirdilər.

Tədbiri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, geniş çıxışında ətraf mühit problemlərinin ciddiliyindən, Xəzər Hava Keyfiyyəti Laboratoriyasının yaradılmasını zəruri edən səbəblərdən danışdı. Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasov aparılmış monitorinqlərin nəticələri haqqında ətraflı məlumat verdi, laboratoriyanın həm də gələcəkdə görəcəyi işlərdən danışdı. Biologiya departamentinin müdiri Dr. Asəf Ömərov, Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov çıxış edərək, ətraf mühit probleminin müxtəlif cəhətlərinə toxundular.

Tədbirdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf mühitin monitorinqi departamentinin müdir müavini Mətanət Avazova geniş çıxış edərək, Xəzər Universitetində Xəzər Hava Keyfiyyəti Laboratoriyasının yaradılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı, nazirliyin bu sahədəki fəaliyyətindən ətraflı danışdı və Xəzər Universiteti ilə əməkdaşlığın faydalı olacağına əminliyini bildirdi, nazirliklə universitet arasında anlaşma memorandumunun imzalanması imkanının da olduğunu söylədi.

Tədbirdə kütləvi informasiya vasitələri əməkdaşlarının sualları cavablandırıldı. İctimai TV, Lider TV, Space TV və ATV telekanalları tədbirdən çəkiliş apardılar və professor Hamlet İsaxanlıdan müsahibə aldılar.

**AZƏRTAC**

(*https://azertag.az/xeber/Xezer_Universitetinde_yaradilan_Hava_keyfiyyetinin_tedqiqi_laboratoriyasinin_teqdimati_kechirilib-1302148*) və ölkənin digər mediası tədbir haqqında xəbər yaymışlar.

As we have previously reported (Khazar News, June 2019), Khazar Air Quality Lab, established at Khazar University, having started its work on June 1, 2019, carried out two monitorings in Baku and nearby areas. Moreover, Lab has published its results, and an analytical report on the results was prepared with students' participation at the Department of Geography and Environment.

It should be noted that the Lab is equipped with modern equipment, which allows to define air quality parameters in accordance with the European Air Quality Index.

On July 3, 2019, the official presentation ceremony of Khazar Air Quality Lab took place at the Marble Hall of Khazar University The ceremony was attended by the University Leadership and staff, representatives of the Institute of Geography of ANAS named after Hasan Aliyev, Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan, representatives of executive authorities of Khazar, Nasimi, Khatai and Binagadi regions of Baku city and the media.

Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, in his opening statement spoke about the seriousness of the environment issues and the reasons that made it necessary to establish the Khazar Air Quality Lab. Dr. Rovshan Abbasov, Director of the Department of Geography and the Environment gave detailed information about the monitoring results and also talked about the laboratory's work in the future. Dr. Asaf Omarov, Head of Biology Department, and Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering, delivered talk about various aspects of the environmental problem.

Metanet Avazova, Deputy Director of the Environmental Monitoring Department of the Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan, emphasized the importance of the establishment of Khazar Air Quality Lab at Khazar University and delivered an extensive speech about the Ministry's activities in this field and expressed confidence that cooperation with Khazar University would be beneficial, moreover asserted the opportunity of signing of the Memorandum of Understanding between the Ministry and University.

During the event, the questions of the mass media representatives were answered. Public TV, Leader TV, Space TV and ATV channels filmed the event and interviewed Professor Hamlet Isakhanli.

**AZERTAC**

(*https://azertag.az/xeber/Xezer_Universitetinde_yaradilan_Hava_keyfiyyetinin_tedqiqi_laboratoriyasinin_teqdimati_kechirilib-1302148*)and country's other media spread information about the event.




















# PROFESSOR HAMLET İSAXANLI BİR QRUP GƏNC ELM ADAMINI QƏBUL ETDİ

# PROFESSOR HAMLET ISAKHANLI MET WITH GROUP OF YOUNG SCHOLARS

İyulun 3-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Azad Berlin Universitetinin məzunu, Avropa İxtisasartırma Mərkəzinin baş müəllimi Dr. Rüfət Səttarov, Humboldt adına Berlin Universitetinin doktorantı Asif Məsimov və Azərbaycan İlahiyyat İnstitutunun Tədris şöbəsinin müdiri, Xəzər Universitetinin doktorantı Zərifə Əliyevanı qəbul etdi. Görüş zamanı qonaqlar Almaniyada təhsil sistemindəki cari vəziyyət və perspektivləri müzakirə etdilər və mədəniyyət, ədəbiyyat, fəlsəfə və digər sahələrə aid məsələlərə toxundular. Eyni zamanda, professor Hamlet İsaxanlı Xəzər Universitetinin fəaliyyətindəki yeniliklər və nəzərdə tutulmuş layihələr haqqında ətraflı məlumat verdi. Tərəflər gələcəkdə əməkdaşlığın qurulması, professor-müəllim heyəti və tələbələrin mübadiləsi, birgə seminar və konfransların keçirilməsi barəsində razılığa gəldilər. Sonra qonaqlar universitetin mərkəz və departamentləri ilə yaxından tanış oldular.

Qeyd edək ki, Dr.Rüfət Səttarov 2000-2001-ci illərdə Xəzər Universitetinin Orta Şərq və İslamşünaslıq departamentinin rəhbəri vəzifəsində çalışmışdır.

On July 3, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, hosted Dr. Rufat Sattarov, graduate of the Free University of Berlin, Senior lecturer at the European Career Enhancement Center, Asif Masimov, PhD student at the Berlin University named after Humboldt, and Zarifa Aliyeva, Head of the Educational Department of the Azerbaijan Institute of Theology, PhD student at Khazar University. During the meeting, guests discussed current situation and perspectives in the education system of Germany and touched upon issues related to culture, literature, philosophy and other areas. At the same time, Professor Hamlet Isakhanli gave detailed information about the innovations and envisaged projects of Khazar University. The Parties agreed on further cooperation, exchange of faculty members and students, joint seminars and conferences organization. Further on, guests got closely acquainted with the University and visited its centers and departments.

It is worth mentioning that Dr. Rufat Sattarov was the Head of Middle East and Islamic Studies Department of Khazar University in 2000-2001.





# ELMİ ŞURANIN İCLASI

İyulun 5-də Xəzər Universiteti Elmi Şurasının cari dərs ilində son iclası keçirildi. Universitetin rektoru dosent İradə Xəlilovanın sədrliyi ilə keçən iclasda gündəliyə daxil edilmiş məsələlər müzakirə olundu.

Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2019-cu il tarixli Fərmanı ilə təsdiq olunmuş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq yaradılan yeni imkanlarla bağlı universitet tərəfindən təkliflərin hazırlanması haqqında universitetin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev çıxış etdi.

Məzunlar haqqında Təbiət elmləri və mühəndislik fakültəsinin dekan müavini Fəxrəndə Əlimərdanova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova məlumat verdilər.

Doktorant və dissertantların dissertasiya mövzusu, elmi rəhbərlərinin təsdiqi və ixtisaslarının dəyişdirilməsi ilə əlaqədar Magistratura, doktorantura və elmi işlər bölməsinin rəhbəri Cabir Məmmədlinin məlumatı, doktorant və dissertantların çıxışları dinlənildi, suallar cavablandırıldı.

Professor Məhəmməd Nuriyev 2018/2019-cu tədris ilinin yekunları və 2019/2020-ci tədris ilində qarşıda duran vəzifələr haqqında çıxış etdi.

Müzakirə olunan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edildi.

İclasda cari məsələlər də müzakirə olundu.

# ACADEMIC COUNCIL MEETING

On July 5, the last meeting of Khazar University's Academic Council was held. At the meeting chaired by the Associate Professor Irada Khalilova, Rector of the University, the issues included in the agenda were discussed.

Professor Mahammad Nuriyev, Vice Rector for Academic Affairs, delivered speech concerning the elaboration of the proposals by the University on the new opportunities, created in accordance with the "Regulation on the Guidelines of Granting Scientific Degrees", approved by the Decree of the President of the Republic of Azerbaijan dated June 11, 2019.

Fakhrande Alimardanova, Vice-Dean of the School of Sciences and Engineering, Ceyhun Mammadov, Dean of the School of Economics and Management, Elza Samedova, Dean of the Faculty of Humanities, Education and Social Sciences, provided information on the graduates.

The information on PhD students and their thesis topics, approval from supervisors, and major changes, provided by Jabir Mammadli, the Coordinator of the Division of Graduate Studies and Research, followed by the reports by PhD students, was listened out and questions were answered.

Professor Mahammad Nuriyev spoke about the outcomes of the 2018/2019 academic year and the challenges ahead in the 2019/2020 academic year.

Relevant decisions were made on the issues discussed.

Current issues were also discussed at the meeting.



# TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

## İTALİYA

### VENESİYA













# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

*TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.*

## Avstriya

### Müqeddes Florian monastırının kitabxanası

Müqeddes Florian monastırının kitabxanası Avropanın en qedim kitabxenalarından biridir. Burada 150 000 cild kitab saxlanılır. Kitabxanada, hemçinin, XVI esrden başlayaraq sonrakı dövrlere de aid en nadir xeriteler kolleksiyası vardır.



www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

# XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2018-2019-CU TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU ELANI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə bilik və tərbiyə ilə yanaşı, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-XI
İNGİLİS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və Diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə şahmat, kompüter, psixologiya, rəsm,texnologiya, musiqi, rəqs, dram və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarıq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK.
DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB. BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF EDƏCƏKSİNİZ.

Bakı, Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt, Bakı küçəsi 37
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn